*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 210 (29182) 24 sentyabr 2019-cu il, çərşənbə axşamı*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Quba rayonunun Quba–Qusar (9 km)–Alpan–Kürkün–Susay avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Quba–Qusar (9 km)–Alpan–Kürkün–Susay avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,4 milyon (on üç milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 sentyabr 2019-cu il**

## Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının iştirakçılarına

***Hörmətli konfrans iştirakçıları!***
***Əziz qonaqlar!***

Sizi Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram. Belə mötəbər tədbirin ölkəmizin paytaxtında yenidən keçirilməsindən məmnunluğumu bildirirəm.

Biliyin qiymətləndirilməsi təhsil sahəsinin ayrılmaz tərkib hissəsidir. Müxtəlif bilik və bacarıqların yoxlanılması zamanı nəticələrin obyektiv qiymətləndirilməsi və müasir ölçmə metodlarından istifadə edilməsi böyük əhəmiyyətə malikdir. “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusuna həsr olunan hazırkı konfrans bu baxımdan təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılmasına, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyaların yaradılmasına öz töhfəsini verəcəkdir.

Azərbaycanın təhsil sistemində son illərdə bir sıra uğurlar qazanılmışdır. Biz postsovet məkanında müasir qiymətləndirmə sistemini tətbiq edən ilk ölkələrdənik. Sistemin fəaliyyəti cəmiyyətimiz və qiymətləndirməni təşkil edən forumlar tərəfindən indi də yüksək dəyərləndirilir. Ölkəmizdə, eyni zamanda, beynəlxalq qiymətləndirmənin inkişaf prinsiplərinə əsaslanaraq lazımi araşdırmalar aparılmış və bu istiqamətdə normativ hüquqi baza təkmilləşdirilmişdir.

Qərar qəbuletmə prosesində qiymətləndirmənin etibarlılığı və daha düzgün qərar qəbul etmək üçün müvafiq qiymətləndirmə üsullarının müəyyən edilməsi aktual məsələlərdəndir. Əminəm ki, 55 ölkədən 300-dən artıq ekspertin qatıldığı konfransınızda qiymətləndirmə sisteminin müxtəlif aspektləri ilə bağlı geniş müzakirələr yeni qiymətləndirmə texnologiyalarının səmərəli tətbiqində və standartların formalaşdırılmasında mühüm rol oynayacaqdır.

**Hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.**

***Mehriban ƏLİYEVA***
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***

**Bakı şəhəri, 23 sentyabr 2019-cu il**



*Biz öz coğrafiyamızı ölkələrimiz və qonşularımız üçün böyük potensiala çevirmişik. Buna görə düşünürəm ki, bizim razılaşdığımız məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcək.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

## Milli maraqların təmin olunmasına yönəlmiş xarici siyasətin uğurları

**Hər bir dövlətin hədəf götürdüyü konkret məqsədləri var və buna nail olmaq üçün fəal xarici siyasət yürüdülməsi strateji əhəmiyyət daşıyır. Əlbəttə ki, bu, hər bir dövlətin ictimai-siyasi quruluşundan və onun sosial-iqtisadi inkişaf səviyyəsindən, eləcə də beynəlxalq problemlərin həllində nümayiş etdirdiyi fəallıq dərəcəsindən asılıdır. Bu mənada Azərbaycanın həyata keçirdiyi fəal çoxtərəfli xarici siyasət strateji hədəflərin yerinə yetirilməsinə xidmət etməklə yanaşı, ölkəmizin beynəlxalq imicinin daha da güclənməsinə şərait yaradır.**

Bu da bir aksiomdur ki, dövlətin daxili siyasəti xalqın maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə yönəldilir, xarici siyasət isə bu vəzifələrin yerinə yetirilməsinə xidmət edir. Ölkə daxilində gedən proseslərdən və qarşıya qoyulan vəzifələrdən irəli gələn bu siyasi xətt dövlətin beynəlxalq münasibətlər sahəsində mövqeyini və həyata keçirdiyi xarici siyasətinin istiqamətlərini, habelə xarakterini və prinsiplərini müəyyənləşdirir. Bu mənada xarici siyasəti dövlətin daxili inkişafının əsas vəzifələrindən irəli gələn, ölkənin milli mənafeləri ilə xarici aləmin maraqları arasında sivil birgəyaşayış qaydaları və normaları əsasında uyğunlaşdırılmış, uzlaşdırılmış münasibətlər sistemini yaratmağa xidmət edən məqsədyönlü fəaliyyət növü kimi xarakterizə etmək olar.

Azərbaycanın xarici siyasət fəaliyyətinin əsas istiqamətlərini suverenliyimizin, ərazi bütövlüyümüzün və beynəlxalq səviyyədə tanınmış sərhədlərimizin bərpa edilməsi və qorunması, ölkənin davamlı inkişafı üçün əlverişli xarici mühitin yaradılması, dünya birliyi ilə qarşılıqlı faydalı əməkdaşlığın və iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi təşkil edir. Bundan başqa, rəsmi Bakının xarici siyasət kursunda enerji və nəqliyyat strategiyasının inkişafının dəstəklənməsi, ölkəmiz haqqında həqiqətlərin dünya birliyinə çatdırılması və beynəlxalq arenada nüfuzunun artırılması məsələləri də ön yerlərdən birini tutur.

Ən əsası, beynəlxalq siyasi arenada cərəyan edən mürəkkəb prosesləri doğru qiymətləndirən və qlobal çağırışlara adekvat reaksiya verən Prezident İlham Əliyevin strateji əhəmiyyətli məsələlərdə milli mənafelərə uyğun addımlar atması xarici siyasət kursumuzun uğurla davam etdirildiyini təsdiqləyir.

Prezident İlham Əliyevin həyata keçirdiyi çoxtərəfli xarici və daxili siyasət Azərbaycanda istər lokal sosial-iqtisadi məsələlər, istərsə də regional əhəmiyyətli bir sıra layihələrin həyata vəsiqə qazanmasına və dövlətlərarası əlaqələrin daha da güclənməsinə gətirib çıxarmışdır. Məhz belə uğurlu xarici və daxili siyasətin həyata keçirilməsi sayəsində Azərbaycanın hərtərəfli inkişaf səviyyəsi ölkəmizi beynəlxalq münasibətlərin mühüm aktoruna çevirməklə yanaşı, milli təhlükəsizliyimizin, o cümlədən ərazi bütövlüyümüzün təmin edilməsinə yönəlmiş fəal diplomatik fəaliyyət göstərməyimizə də münbit şərait yaratmışdır.

**(ardı 3-cü səhifədə)**

## Azərbaycan–Çin: tarixi İpək yolunun bərpası sürətlənir

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Çin ilə əlaqələrimizin inkişafı istiqamətində önəmli addımlar atıb. Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin martında Çinə rəsmi səfəri zamanı iki ölkə arasında münasibətlərin dayanıqlı təməli qoyulub. Prezident İlham Əliyevin Çinə dövlət səfərlərindən sonra isə bu əlaqələr keyfiyyətcə daha yüksək səviyyəyə qalxıb.**

Bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələri dinamik inkişaf edir. Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin respublikamıza səfəri çərçivəsində keçirilən görüşlərdə də bu barədə ətraflı danışılıb. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev Çinə beş dəfə səfər edib. Cari ilin aprel ayında dövlət başçımızın Çinə səfəri zamanı bu ölkə ilə 10 saziş imzalanıb. İndiyədək isə iki ölkə arasında 77 hüquqi sənəd imzalanıb. Ötən il Çinlə ticarət dövriyyəsinin həcmi 1,3 milyard ABŞ dolları olub.

Xatırladaq ki, cari ilin aprel ayında Pekində keçirilən II “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda Çin Xalq Respublikasının sədri Si Cinpinin 2013-cü ildə elan etdiyi “Bir kəmər, bir yol” adlı yeni iqtisadi inkişaf strategiyası tarixi İpək Yolu üzərində yerləşən dövlətlər də daxil olmaqla Çinin xarici ölkələrlə qarşılıqlı əlaqələrinin inkişafına və ticari-iqtisadi əməkdaşlığın genişlənməsi ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlib. Bu strategiya tarixi İpək yolu və dəniz İpək yolu kimi iki mühüm inkişaf istiqamətini əhatə edib.





Xatırladaq ki, Avrasiyanın mərkəzində, Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək yolunun mühüm önəm daşıyan ölkələrindən biri olub. Müasir dövrdə isə Azərbaycan öz tarixi ənənələrinə söykənərək, beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında fəal iştirak edir. Ulu öndər Heydər Əliyev Azərbaycanın coğrafi və iqtisadi imkanlarını düzgün qiymətləndirərək, ölkəmizin beynəlxalq ticarət daşımalarında fəal iştirakı ilə bağlı əməli işlər görüb. Ümummilli liderin bu istiqamətdə təşəbbüsü ilə 1998-ci ilin sentyabrında Bakıda 13 beynəlxalq təşkilat və 32 dövlət nümayəndə heyətlərinin iştirakı ilə “TRACECA – tarixi İpək yolunun bərpası” Beynəlxalq Konfransı keçirilib. Məhz həmin önəmli toplantıda Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulub.

Ümummilli liderin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanın hərtərəfli inkişafı ilə paralel, ölkəmizin nəqliyyat-tranzit potensialının müasirləşdirilməsi istiqamətində nəhəng işlər görülür. Azərbaycandakı 6 beynəlxalq hava limanı, Bakı yük terminalı, Ələt Ticarət Limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı–Tbilisi-Qars dəmir yolu xətti ölkəmizin nəqliyyat-tranzit sahəsində qısa müddətdə əldə etdiyi uğurlardır. Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır.

**(ardı 3-cü səhifədə)**



**Azərbaycan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır**

▸▸3



**Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib**

▸▸4



**Ukrayna Ermənistanla onun öz dilində danışır**

▸▸5



**Sergey ŞOYQU: Biz Ukrayna xalqı ilə sülh və mehriban qonşuluq şəraitində yaşayacağıq**

▸▸8

# Milli maraqların təmin olunmasına yönəlmiş xarici siyasətin uğurları

(əvvəli 1-ci səhifədə)

Azərbaycan xalqının zəngin maddi-mədəni irsinin dünya miqyasında tanıdılması və xaricdə yaşayan həmvətənlərlə əlaqələrin daha da gücləndirilməsi də xüsusi diqqət ayrılan istiqamətlərdir. Son illər dünyanın bir sıra regionlarında cərəyan edən təhlükəli proseslər də beynəlxalq sülhə və təhlükəsizliyə, o cümlədən regional inkişafa yeni təhdidlər yaradır. Rəsmi Bakı bu ciddi çağırışlara vaxtında və milli maraqlar çərçivəsində tutarlı cavab verilməsini də diqqət mərkəzində saxlayır. Bununla yanaşı, Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsaslarını, Konstitusiyanın 10-cu maddəsində yazıldığı kimi, başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir.

Ötən illər ərzində ümummilli liderin əsasını qoyduğu uğurlu xarici siyasət konsepsiyası Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Məhz belə siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlərin nüfuzlu subyektinə çevrilmişdir. Bu gün regionun lider dövləti olan Azərbaycan nəinki regional layihələrin iştirakçısı kimi tanınır, həm də beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı və lokomotivi rolunda çıxış edir. Dövlət başçımızın xarici ölkələrə səfərləri və keçirdiyi uğurlu danışıqlar, o cümlədən əldə olunmuş razılıqlar, habelə imzalanmış sənədlər rəsmi Bakının qarşılıqlı faydalı əməkdaşlığa, bərabərhüquqlu münasibətlərə üstünlük verilən xarici siyasət kursunun günün tələbləri səviyyəsində inkişaf etdiyini bir daha təsdiqlədi.

Azərbaycanın diplomatik fəaliyyətinin əsas istiqamətlərindən birini də Avropa dövlətləri ilə münasibətlərin qurulması təşkil etmişdir. Əlverişli coğrafi mövqedə yerləşən ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında, o cümlədən regional və qlobal təhlükəsizliyə verdiyi töhfə tərəflər arasında münasibətlərin daim inkişaf etməsinə şərait yaradır. Buna görə də, Avropa İttifaqı ilə çoxşaxəli əməkdaşlıq Azərbaycanın xarici siyasət doktrinasında mühüm istiqamətlərdən birini təşkil edir və tərəflər arasında imzalanmış sənədlər əlaqələrin inkişafına öz təsirini göstərir. Həyata keçirilmiş çevik diplomatik siyasətin nəticəsidir ki, Avropa Şurası Parlament Assambleyasının "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə", Avropa Parlamentinin "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb" qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində və Avropa İttifaqı – Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında Azərbaycanın mövqeyi dəstəklənmiş, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur.

Azərbaycan müstəqil dövlət kimi nüfuzlu beynəlxalq təşkilatlarda özünün maraq və mənafeyini maksimum dərəcədə təmin edir. Bu gün məşhur politoloqlar da əminliklə bildirirlər ki, Azərbaycan yürütdüyü tarazlaşdırılmış siyasətlə dünyanın əsas güc mərkəzləri ilə optimal münasibətlər formalaşdırmışdır. Heç kimə sirr deyil ki, ayrı-ayrı böyük dövlətlərin Cənubi Qafqaz regionunda maraqları uzlaşmır və belə bir vəziyyətdə rəsmi Bakı həyata keçirdiyi siyasətlə bərabərhüquqlu tərəfdaş və dövlətlərarası əlaqələrdə qarşılıqlı hörmətə əsaslanan münasibətlər formalaşdırmağı bacarmışdır. Bu gün artıq bir reallıqdır ki, Azərbaycan çoxşaxəli, balanslaşdırılmış xarici siyasət kursu həyata keçirərək beynəlxalq arenada tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürüdür. Həmin siyasətin həyata keçirilməsinə imkan verən güclü potensialımızın formalaşması da məhz Prezident İlham Əliyevin siyasi məharətinin nəticəsində mümkün olmuşdur.

Bundan başqa, ikitərəfli və çoxtərəfli qaydalar əsasında yürüdülən xarici siyasət Azərbaycanın iqtisadi imkanlarının artmasına da imkan vermişdir. İqtisadi potensialının artması Azərbaycanı xarici ölkələrə sərmayə yatıran ölkəyə çevirmişdir. Qeyd etmək yerinə düşər ki, Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft sektorunun inkişafının vacib elementidir. Azərbaycanın təşəbbüsü ilə ərsəyə gətirilmiş Bakı – Tbilisi – Ceyhan neft və Bakı – Tbilisi – Ərzurum qaz infrastruktur layihələri, eləcə də TANAP və TAP layihələri, habelə Bakı – Tbilisi –Qars dəmir yolu layihəsi, şübhəsiz ki, regionda iqtisadi, sosial inkişafa, ən əsası isə qarşılıqlı inam və faydanın üzərində qurulan uzunmüddətli əməkdaşlığa səbəb olmuşdur.

Bu gün Azərbaycanın malik olduğu nüfuz və diplomatik potensial yalnız Cənubi Qafqaz regionu ilə məhdudlaşmır, beynəlxalq xarakter daşıyır. Siyasi mütəxəssislər bildirirlər ki, ölkəmizin ikitərəfli əməkdaşlığının coğrafiyası və məzmunu daim genişlənir, tərəfdaşlarının sayı artır. Buna görə də, təsadüfi deyil ki, həyata keçirilən siyasətin nəticəsində Azərbaycan hazırda müxtəlif əməkdaşlıq layihələri ilə regionda və onun hüdudlarından kənarda sülh, sabitlik və çiçəklənmənin sərhədlərinin genişlənməsinə töhfə verir, habelə müasir dövrün təhdidlərinin qarşısının alınmasında beynəlxalq birliyin səylərini yaxından dəstəkləyir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən üçtərəfli regional əməkdaşlıq formatı beynəlxalq səviyyədə diplomatik yenilik kimi qəbul olunaraq, ikitərəfli əlaqələrimizi tamamlayır və yeni əməkdaşlıq imkanları yaradır. Bundan başqa, Azərbaycan Şərq – Qərb, Şimal – Cənub, Cənub – Qərb marşrutları üzrə dünya okeanlarını və qitələri birləşdirən nəqliyyat layihələrinin müəllifidir.

Yeni, mürəkkəb, eyni zamanda, strateji əhəmiyyətli coğrafi məkanda yerləşən Azərbaycan xarici siyasətində milli maraqlarına uyğun davranır, daha çox qarşılıqlı etimada əsaslanan əlaqələrə üstünlük verir, lokal və qlobal təhlükəsizliyin və sülhün möhkəmlənməsinə, eləcə də iqtisadi inkişafın gücləndirilməsinə təkan verən addımları dəstəkləyir. Ən əsası, milli maraqların təmin olunmasına yönəlmiş xarici siyasətin bundan sonra da davam etdiriləcəyinə heç bir şübhə yoxdur və Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan beynəlxalq arenadakı mövqeyini daha da gücləndirəcəkdir.

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**

**Prezident İlham Əliyevin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da əhəmiyyəti böyük olan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün mühüm işlər görülür. Həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılır, həm də tranzit potensialı gücləndirilir. Bütün bunlar isə Azərbaycana daha da böyük həcmdə siyasi və iqtisadi dividendlər gətirir.**



# Azərbaycan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır

Dövlətimizin başçısı çıxışlarının birində nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi ilə bağlı deyib: "Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Biz indi öz nəqliyyat infrastrukturumuzu möhkəmləndiririk. Bizim dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə böyük rol oynayacaqdır. Regionda digər mühüm işlər də məhz bununla bağlıdır".

Hazırda beynəlxalq miqyasda yükdaşımalar sahəsində ciddi rəqabət var. Təbii ki, belə bir şəraitdə dövlətimizin başçısı İlham Əliyevin də vurğuladığı kimi, böyük tranzit potensialına malik olan Azərbaycan müşahidəçi mövqeyində dayana bilməz və daha əlverişli şərtlər irəli sürmək, tranzit daşımaları sahəsində səmərəli idarəçilik yaratmaq və müvafiq koordinasiya siyasəti reallaşdırmaqla ciddi irəliləyişlər əldə edə bilər. Azərbaycan Prezidenti bu məsələyə toxunaraq qeyd edib: "Bu gün yükdaşımaları uğrunda ciddi mübarizə gedir. Bölgə ölkələri rəqabət aparır. Azərbaycan burada passiv müşahidəçi mövqeyi tutmamalıdır. Bəzi hallarda gözləyirik kimsə gəlib bizim qapımızı döysün ki, gəlin biz sizdən yük keçirək. Biz özümüz təşəbbüs göstərməliyik, yükləri müəyyən etməliyik, yaxşı şərtlər ortaya qoymalıyıq".

Bu məsələ "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da öz aydın ifadəsini tapıb. Sənəddə qeyd edilir ki, Azərbaycanı regionun ticarət mərkəzinə çevirmək məqsədilə respublikanın strateji coğrafi mövqeyindən səmərəli istifadə etməklə tranzit və nəqliyyat xidmətlərinin inkişafı, ölkənin bölgələrində logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur. Bütün bunlar, eyni zamanda, istehsal və investisiya mərkəzi kimi də respublikanın cəlbediciliyinin artmasına, yeni biznes və məşğulluq imkanlarının yaranmasına yol açacaq.

Son 16 il ərzində paytaxtda və ölkənin regionlarında beynəlxalq hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsinə başlanılıb və xeyli iş görülüb. Bütün bunların nəticəsində isə yükdaşımaların həcmində artım qeydə alınıb.

Bu sırada diqqətçəkən məqamlardan biri hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin gerçəkləşməsi ilə bağlı işlərin sürətləndirilməsidir. Yeri gəlmişkən, Azərbaycan sözügedən beynəlxalq nəqliyyat dəhlizinin reallaşmasında mühüm rol oynayır.

Son dövrlərdə Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin keçəcəyi regionda, fərqli qütblər arasında geosiyasi rəqabətin daha da kəskinləşməsi fonunda sabit və balanslı xarici siyasət yürüdən Azərbaycan yeni siyasi və iqtisadi dividendlər əldə etməyi hədəfləyib.

Xatırladaq ki, Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi 2000-ci ildə İran, Rusiya və Hindistan tərəfindən dövlətlər arasında nəqliyyat əlaqələrini inkişaf etdirmək məqsədi ilə yaradılıb.

Dəhliz vasitəsi ilə yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirildikdən sonra qatarlara yüklənməsi və İranın mövcud dəmir yolu ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinə ötürülməsi və birbaşa Azərbaycan ərazisindən Rusiyaya, oradan da Şimali Avropa ölkələrinə çatdırılması planlaşdırılır.

Hazırkı marşrut (Süveyş kanalı) üzrə malların çatdırılma vaxtı 45-60 gündür, Şimal-Cənub dəhlizi vasitəsilə 14-20 gün olması gözlənilir.

Yeri gəlmişkən, 2005-ci ildən etibarən layihənin önəmli parçasına çevrilən Azərbaycan son illərdə üzərinə götürdüyü bütün vəzifələri icra edib. İran sərhədinə qədər dəmir yolu infrastrukturunun yenilənməsi təmin olunub və 2018-ci ilin martında İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri çərçivəsində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi ilə bağlı saziş imzalanıb.

Azərbaycan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tezliklə istifadəyə verilməsində maraqlıdır və artıq yolun Rəşt-Astara hissəsinin tikintisinə 500 milyon dollar güzəştli kredit ayrılması ilə bağlı qərar qəbul olunub.

Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı layihənin ciddiliyini nəzərə alaraq investisiya yatırması ölkəmizə beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini qazandırıb.

Son illərdə Bakı-Tbilisi-Ceyhan dəmir yolunun, Ələtdə Beynəlxalq Limanın tikilib istifadəyə verilməsi və azad iqtisadi zonanın yaradılması nəticəsində Azərbaycan Mərkəzi Asiyanı Qərblə (Türkiyə və Avropa İttifaqı), Cənubi Asiyanı (İran və Hindistan) isə Şimalla birləşdirən nəqliyyat qovşağına çevirəcək.

Hazırda beynəlxalq siyasi arenada baş verən gərginliklər, Şimal-Cənub layihəsinin reallaşmasını gecikdirsə də, bu problemin ölkəmizdən qaynaqlanmadığı aydındır. Azərbaycan gerçəkləşdirilməsi zəruri olan bütün infrastruktur layihələrini uğurla həyata keçirib.

**"Xalq qəzeti"**

## Bakıda "Qafqaz Qartalı – 2019" birgə təliminin açılış mərasimi olub

***Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin əldə etdikləri razılığa əsasən üç ölkənin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə Bakıda "Qafqaz Qartalı – 2019" birgə təlimi başlayıb.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, təlimdə hava komponentlərindən də istifadə olunmaqla şərti hədəfin məhv edilməsi, girovların azad edilməsi, yaralıların təxliyə olunması və digər tapşırıqlar yerinə yetiriləcək.

Oktyabrın 1-dək davam edəcək təlimdə Pakistan hərbi qulluqçuları müşahidəçi qismində iştirak edir.

**"Xalq qəzeti"**



## Azərbaycan və Rusiya gəncləri Sankt-Peterburqda bir araya gəldilər



***Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Sankt-Peterburqda VII Rusiya–Azərbaycan Gənclər Forumu keçirilir.***

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 25-dək davam edəcək forumda Azərbaycanı gənclər və idman nazirinin müavini İntiqam Babayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Forumun sentyabrın 23-də keçirilən rəsmi açılış mərasimində çıxış edən İ.Babayev bu tədbirin keçirildiyi yeddi il ərzində Rusiya və Azərbaycan gəncləri arasında sıx əlaqələrin qurulduğunu və münasibətlərin daha da inkişaf etdiyini bildirib. Nazir müavini vurğulayıb ki, bu forum hər iki ölkə gənclərinin bir-biriləri ilə daha yaxından tanış olmaları, müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrini genişləndirmələri üçün böyük imkanlar yaradır. "İlk forum 2012-ci ildə "Yeni nəsil: sərhədsiz məsuliyyət" devizi altında ölkəmizdə keçirildi və əsası dialoq və əməkdaşlıq olan bəyannamə Azərbaycanda qəbul edilib. Sevindirici hal ondan ibarətdir ki, forumlar daim müxtəlif sahələri əhatə edən mövzular ətrafında gerçəkləşir. Bu isə o deməkdir ki, forum öz ətrafına fərqli düşüncəli, müxtəlif sahələrdə fəaliyyət göstərən gəncləri cəlb edib, onların bacarıq və imkanlarının genişləndirilməsi üçün yeni zəmin yaradır. Prezidentlər İlham Əliyev və Vladimir Putin də daim çıxışlarında hər iki ölkənin sıx və inkişaf etməkdə olan dostluq münasibətlərini xüsusi vurğulayırlar", – deyə İ.Babayev bildirib.

Nazir müavini, həmçinin iki ölkə gəncləri arasında əməkdaşlığın, əlaqələrin genişləndirilməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi Rusiya Azərbaycanlı Gənclər Təşkilatının rolunu xüsusi vurğulayıb. O, Rusiyanın müxtəlif universitetlərində təhsil alan gənclərin mütəmadi olaraq Azərbaycana səfərlərinin təşkil edildiyini və bu istiqamətdə böyük addımların atıldığını diqqətə çatdırıb.

Azərbaycandan 25 gəncin qatıldığı forumda "Gənclərin yaradıcı inkişafı üçün beynəlxalq layihələr. Mədəniyyət və mədəniyyətlərarası dialoqun təşviqi", "Gənclər üçün biznes. Sosial sahibkarlıq", "Qeyri-rəsmi təhsil və gənclərin QHT-lərinin bu istiqamətin inkişafındakı rolu", "Davamlı inkişaf məqsədləri", "Müasir media məkanı" mövzularında sessiyalar təşkil edilib. Bölmə iclaslarında iştirak edənlər Rusiya və Azərbaycan gəncləri arasında əməkdaşlığın inkişafı üçün birgə təkliflər hazırlayacaqlar.

Forum çərçivəsində Sankt-Peterburqun Gənclər mərkəzləri ilə tanışlıq olacaq və bu şəhərdəki Azərbaycan diasporunun gənc nümayəndələri ilə görüşlər keçiriləcək.

# Azərbaycan–Çin: tarixi İpək yolunun bərpası sürətlənir

(əvvəli 1-ci səhifədə)

Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir. Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticarət-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub. Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə səfəri zamanı "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan tarixi İpək yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Azərbaycan rəsmiləri müxtəlif görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin bu təşəbbüsə təkcə siyasi dəstək verməklə kifayətlənmədiyini, həm də onun icrasına özünün iqtisadi potensiali və nəqliyyat-tranzit imkanları ilə əməli töhfələr verməyə hazır olduğunu bəyan ediblər. Prezident İlham Əliyev ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunun dövlət başçıları səviyyəsində "Daha parlaq birgə gələcəyin qurulması" mövzusunda çıxışında ölkəmizin "Bir kəmər, bir yol"a verdiyi dəstəyə və bu çərçivədə əməkdaşlıq imkanlarına toxunaraq deyib: "Üç il öncə Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb. Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyimizdən bəhrələnərək biz Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırdıq. Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Altı beynəlxalq hava limanı müasir nəqliyyat infrastrukturunun yaradılmasına növbəti töhfəmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Nəqliyyat Reytinq Agentliyi tərəfindən ən yaxşı regional hava limanı kateqoriyasında beş ulduza layiq görülüb. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir".

Dövlətimizin başçısı çıxışında Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələrin öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edə biləcəklərini vurğulayıb. Bildirib ki, müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla biz yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda, biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. "Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olmasi işinə xidmət göstərir.

Xüsusi qeyd etmək lazımdır ki, Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanın dövlət başçısının ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumuna dəvət olunması da əslində Çinin də bu strategiyanın icrasında Azərbaycan ilə əməkdaşlığı dərinləşdirmək niyyətini göstərir. ÇXR sədri Si Cinpinin Azərbaycan Prezidenti İlham Əliyev ilə aprelin 24-də Pekində keçirdiyi görüş zamanı "Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərin birisiniz. Sizin ölkəniz böyük İpək yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram" fikirləri dediklərimizi təsdiq edir.

Son vaxtlar ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələri daha dinamik şəkildə inkişaf edibdir. ÇXR sədri Si Cinpinin təşəbbüsü ilə irəli sürülən "Bir kəmər, bir yol" layihəsi ölkəmiz üçün çox cəlbedicidir. Tarixi İpək yolunun bərpası Azərbaycan üçün hər zaman aktualdır. Bu yol hər zaman Azərbaycan və Çin xalqlarını birləşdirən bir vasitə kimi diqqət çəkir. Hazırda "Bir kəmər, bir yol" layihəsi çərçivəsində mühüm tədbirlər reallaşdırılır. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyir və bu istiqamətdə müəyyən addımlar atılır.

Bu gün Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika və s. sahələrdə uğurlu əməkdaşlıq edir. Ölkəmizdə 119 Çin kapitallı şirkət fəaliyyət göstərir. Cari ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi 2,3 dəfə artaraq 1,4 milyard ABŞ dollarından çox olub. Qarşılıqlı investisiya əlaqələri də genişlənir. Çindən Azərbaycan iqtisadiyyatına 800 milyon ABŞ dollarından çox, Azərbaycandan isə Çinə 1,7 milyard dollar sərmayə yatırılıb.

Bununla belə, qarşılıqlı sərmayə qoyuluşları, ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar mövcuddur və bu istiqamətlərdə davamlı olaraq tədbirlər həyata keçirilir. Hazırda Çində Azərbaycanın 2 şərab və 1 ticarət evi fəaliyyət göstərir. Bu ölkədə respublikamızın daha 3 ticarət və 1 şərab evinin açılması nəzərdə tutulur. Azərbaycan istehsalçıları mütəmadi olaraq Çində keçirilən beynəlxalq sərgilərdə iştirak edir, bu ölkəyə ixrac missiyaları təşkil olunur. Ötən il ölkəmiz Birinci Çin Beynəlxalq İdxal Sərgisində vahid ölkə stendi ilə böyük çeşiddə məhsullarını nümayiş etdirib. Cari il təşkil olunacaq İkinci Çin Beynəlxalq İdxal Sərgisində də Azərbaycan şirkətlərinin iştirakı nəzərdə tutulur. Aparılan işlər Azərbaycan məhsullarının Çində daha çox tanıdılmasına imkan yaradır.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

# Bakıda IAEA 2019 beynəlxalq konfransının açılış mərasimi keçirilib

***❒ Sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransının (IAEA 2019) rəsmi açılış mərasimi keçirilib. Konfransın Azərbaycanda təşkilatçısı Dövlət İmtahan Mərkəzidir.***






IAEA-nın illik konfransı ölkəmizdə ikinci dəfədir təşkil olunur. Builki konfransın işində Azərbaycanla birgə 55 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Konfransın rəsmi açılış mərasimində iştirakçılar Azərbaycan Respublikasının Dövlət himnini ifa ediblər.

Mərasimdə çıxış edən IAEA prezidenti Rendi Bennett Dövlət İmtahan Mərkəzinin IAEA-nın mövzularla zəngin bu tədbirinin Azərbaycanda yenidən keçirilməsi üçün səylə çalışdığını vurğulayıb. Bildirib ki, Dövlət İmtahan Mərkəzi maraqlı və informativ elmi proqram, habelə Xəzərin sahilində yerləşən gözəl Bakı şəhərində bir sıra sosial tədbirlər işləyib hazırlayıb. IAEA 2019 təhsilin qiymətləndirilməsini necə inkişaf etdirə biləcəyimiz ətrafında stimullaşdırıcı mübadilə ilə dolu xüsusi bir konfrans vəd edir. Konfransın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusu apardığımız araşdırmanın və tətbiq etdiyimiz təcrübənin mərkəzində qiymətləndirmənin məqsəd və istifadəsini qoyur. "Qoy bu konfrans zəngin ideya və diskussiyalarla, habelə təşviq edəcəyi zəngin qarşılıqlı əlaqələrlə yadda qalsın. Təhsilin səmərəliliyini artırmaq və dünyanı daha da yaxşılaşdırmaq naminə birgə işləməyimizə kömək etsin", - deyən Rendi Bennett konfrans iştirakçılarına məhsuldar və xoş həftə arzulayıb.



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub ***(məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).***

Tədbirdə çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə konfransın Bakıda ilk dəfə 2007-ci ildə keçirildiyini xatırlayaraq deyib: "Əvvəlki tədbirimizdən artıq 12 il keçib. Bu müddət ərzində həm biz dəyişmişik, həm də dünya bir çox yeni nəzəri, mədəni və texnoloji yeniliklərin təsirlərinə məruz qalıb. Bütün




bunlar da öz növbəsində öyrətməyə, öyrənməyə və ümumilikdə təhsilə təsirsiz ötüşməyib. Bu cür böyük dəyişikliklər, heç şübhəsiz, təhsildə qiymətləndirmədə də dəyişikliklərə səbəb olmalıdır. Artıq onilliklərdir ki, qiymətləndirmə təhsildə aktuallaşan prioritetlərdən birinə çevrilib və bu sahədə islahatlar aparılması da əsas müzakirə mövzularındandır.

Nailiyyətlərin sınağı və bu barədə ictimaiyyətə hesabat verilməsi, uşaqların həyat imkanlarını genişləndirmək məqsədilə mövcud resurslardan istifadə barədə siyasətçiləri və cəmiyyəti aşkar məlumatlandıra biləcək azsaylı vasitələrdən biri kimi görünür.

Keçmiş təcrübəyə və ötən il Oksfordda "Qiymətləndirmə və böyük verilənlər" mövzusu üzrə keçirilən konfransın nəticələrinə əsaslanaraq söyləyə bilərik ki, əksər qiymətləndirmələr zamanı məlumatların azlığı qarşıya çıxan problemlər arasında yer almır. Çünki əslində əksər hallarda aydın qərar qəbul etmək üçün kifayət qədər çox məlumat bazası olur. Buna görə də builki konfransın mövzusunu daha çox müzakirəyə ehtiyac duyulan istiqamətdə - "Qiymətləndirmə və qərar qəbuletmə" kimi müəyyən etdik.

Məhz bu baxımdan, institusional islahat vasitəsi kimi təhsildə qiymətləndirməni təşviq edən ən yaxşı qiymətləndirmə tədqiqatçılarını və əsas şəxsləri konfransımıza dəvət etdik. Onlar sizinlə qiymətləndirməyə əsaslanan qərar qəbuletmənin müxtəlif perspektivlərini müzakirə edəcəklər. Bu sıraya ibtidai təhsildə test, dil biliklərinin qiymətləndirilməsi, qiymətləndirmə sistemləri, sinif qiymətləndirməsi, qiymətləndirmə fəlsəfələri, qiymətləndirmənin yoxlanılması sistemləri, qiymətləndirmənin tərtib olunması, müəllimlərin sertifikasiyası daxildir. Həmçinin qərar qəbuletmə, siyasətin formalaşdırılması, ali təhsil, qiymətləndirmə strategiyaları, müəllim inkişafı, psixoloji qiymətləndirmə, müəllim hazırlığı və qiymətləndirmə, yazı işlərinin qiymətləndirilməsi, validlik, qiymətləndirmə metodları, müqayisəli tədqiqatlar, diaqnostik qiymətləndirmə, qiymətləndirmə standartları, testdə keyfiyyətin təmin olunması, seçim üçün qiymətləndirmə, texnologiya, qiymətləndirmə islahatları, qiymətləndirmənin tətbiqi modelləri, qəbul proqnozları, regional inkişaf müzakirə olunacaq əsas mövzulardır.

Bundan əlavə, biz, Astana Dövlət Qulluğu üzrə Regional Xab tərəfindən dəstəklənən dövlət qulluğu panelini də builki proqrama daxil etmişik. Ümid edirəm ki, panel sessiyaları və müzakirələr intellektual baxımdan stimullaşdırıcı və faydalı olacaq.

Biz yeni ideyaların yaranmasında, qarşılıqlı əməkdaşlığın qurulmasında çox maraqlıyıq! Biz buna çərşənbə günü Cambridge Assessment (Kembric Qiymətləndirmə) ilə tərəfdaşlıq sazişi imzalamaqla başlayırıq. Biz təhsildə qiymətləndirmə üsullarının tətbiqi ilə əlaqədar olan hər bir kəslə əməkdaşlıq etməyə hazırıq və bunu səbirsizliklə gözləyirik.

Tərəfdaşlarımız, sponsorlarımız və bütün bizə dəstək olanlarla birgə sizin Bakıya bu gəlişinizi xoş xatirələrlə zəngin və unudulmaz etməyə çalışmışıq!

Bu həftə burada toplaşan və Bakını yenidən təhsilin qiymətləndirilməsi üzrə müzakirələr mərkəzinə çevirən hər bir kəsə dərin təşəkkürümü bildirirəm".

Təhsil naziri Ceyhun Bayramov ölkəmizdə bu cür nüfuzlu tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas istiqamətləri sırasında səriştəyə əsaslanan təhsil məzmununun və yeni təhsil idarəetmə sisteminin yaradılması, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsi və yüksəkixtisaslı kadrlar hazırlanmasının təmin edilməsi, rəqabətqabiliyyətli mütəxəssislər yetişdirilməsi, həmçinin təhsilin




beynəlmiləlləşdirilməsi imkanlarının genişləndirilməsi önəmli məsələlərdir. Son 6 ildə təhsilin keyfiyyətində xeyli irəliləyiş əldə edilib. Əldə olunan nailiyyətlərin gedişatını ölçmək üçün Azərbaycan bir sıra beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edir. "Progress in International Reading Literacy Study" (PIRLS) - oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqatın nəticələrinə görə, azərbaycanlı şagirdlərin 2016-cı ildə oxu bacarıqları 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 462 baldan 472 bala yüksəlib və ya 10 bal artıb.

Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində mühüm addımlar atılır. Son üç ildə 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb göstəricisi 24 faizdən 75 faizə kimi artırılıb.

Ölkəmizdəki mərkəzləşdirilmiş imtahan modelinin yüksək səviyyədə şəffaflıq və rəqabət əldə etməsi baxımından həlledici rolu olub.

Milli tədris proqramları gələcək əmək bazarının ehtiyaclarını ödəmək, öyrənənlərin fərdi rifahına və xoşbəxtliyinə nail olmağa xidmət edir. Bu məqsəd üçün qiymətləndirmə siyasəti əsas aparıcıdır.

Təhsil sistemini dünyada baş verən sürətli dəyişikliklərə uyğunlaşdırmaq əsas istiqamətlərdən biri olmalıdır.

İnanıram ki, konfrans hamımızın bu sahədə ən yaxşı təcrübələrimizi bölüşmək və qarşılaşdığımız ümumi problemləri müzakirə etmək üçün bir platforma olacaq.

Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bildirib ki, konfransın gündəmində duran məsələlər, o cümlədən qiymətləndirmə proseslərində texnologiyaların rolu, imtahan proseslərinə aid psixoloji tədqiqatlar artırılması, təhsildə müəllimlərin yeri universitetlərin gündəlik işinə bilavasitə təsir edir.

Rektor vurğulayıb ki, təhsildə şəffaf və etibarlı qiymətləndirmə prosesinin inkişafı üçün Azərbaycan mühüm irəliləyişlər əldə edib - sovet dönəmindən qalan subyektiv və qərəzli qiymətləndirmə bilik və qabiliyyətləri aydınlaşdıran imtahan sistemi ilə əvəz olunub. Məhz bunun nəticəsində ölkədə həm universitetlərin keyfiyyəti, həm də onların məzun etdiyi insan kapitalının səviyyəsi müvafiq şəkildə qalxıb.

ADA Universitetinin təcrübəsi ilə bölüşən Hafiz Paşayev deyib ki, rəhbərlik etdiyi ali təhsil ocağı ölkədə bakalavr proqramlarına qəbulda beynəlxalq SAT imtahanının nəticələrini nəzərə alan ilk universitet idi. SAT nəticələri ADA-nın ərizə qəbulu prosesində tələb olunan digər sənədlər və daxili müsahibə mərhələsinin nəticələri ilə birgə nəzərə alınır. Hazırda bu təcrübədən ölkənin digər universitetlərində də istifadə olunur.

Hafiz Paşayev diqqətə çatdırıb ki, ADA Universiteti davamlı olaraq Dövlət İmtahan Mərkəzi ilə işləyərək ölkədə imtahan sisteminin təkmilləşdirilməsi üçün yeni yollar və üslublar üzərində çalışır. Buna misal kimi, imtahanlar zamanı istifadə olunan sualların abituriyentlərin məntiqi və tənqidi düşüncə tərzini yoxlamağa istiqamətləndirildiyini göstərmək olar. Beləliklə, tələbələr əzbərçilikdən uzaqlaşaraq, təhlil və tənqid kimi vacib qabiliyyətləri inkişaf etdirirlər. Bundan əlavə, ADA Universiteti ölkədə ilk dəfə olaraq orta məktəbin əhəmiyyətini vurğulamaq məqsədilə pilot layihəsi çərçivəsində ali təhsilə qəbul imtahanlarını orta təhsildən məzun imtahanlarının nəticələri ilə birləşdirdi. Belə ki, bu ildən fəaliyyətə başlayan ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr pilləsinə məktəbin yekun daxili orta bal qiymətləndirmə sistemi (Cumulative Grade Point Average) əsasında qəbul olunacaqlar. Hafiz Paşayev bu yeniliyin də ölkənin təhsil sisteminə müsbət meyillər gətirəcəyinə inandığını dedi və bildirdi ki, ADA Universiteti dataya əsaslanan təhlil nəticəsində qəbul prosesini daha da təkmilləşdirmək üçün Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıqda humanitar və texniki elmlər üzrə bilikləri qiymətləndirəcək vahid imtahanın institusional həlli yollarını axtaracaq. Bu da məktəbliləri əlavə müəllimlə məşğul olmaq zərurətindən azad edəcək.

Orta məktəb mühitinin vacibliyini diqqətə çatdıran rektor Hafiz Paşayev vurğuladı ki, sinif mühiti tək şagirdlərə bilik və bacarıq vermək üçün deyil, həm də vətəndaş hazırlayan mühit kimi labüddür.

ADA Universitetinin rektoru konfrans müzakirələrinin nəticələrinin dünyanın hər yerində təhsilin keyfiyyətinin qaldırılmasına xidmət edəcəyinə inamını bildirib.

Açılış mərasimində Kolumbiya Universitetindən (ABŞ) Amra Sabik-El Rayessin videomüraciəti təqdim olunub. Müraciətdə Amra Sabik-El Rayess 2018-ci ildə ABŞ dövlət departamenti və Azərbaycan Təhsil Nazirliyi tərəfindən ölkəmizə işə dəvət edildiyini xatırlayaraq deyib: "Bu, Azərbaycanın təhsil sistemi, onun imkanları və qarşılaşdığı çətinliklərini öyrənməyim üçün böyük fürsət oldu. Uzun illər araşdırdığım sistemlərdən fərqli olaraq, Azərbaycan təhsilin testlə yoxlanılması sahəsində nəzərəçarpan addımlar atıb və digər ölkələr bundan nümunə götürə bilər. Dövlət İmtahan Mərkəzi (DİM) publik hüquqi şəxs kimi Azərbaycanda təhsil sahəsində standartlaşdırılmış test imtahanlarının keçirilməsinə məsuliyyət daşıyır və təhsildə hərəkətliliyə ictimai inamın yenidən qurulmasında aparıcı rol oynayır. Azərbaycana gələndə verdiyim ilk sual DİM-in bunu necə etməsi haqqında olmuşdu. Cavab isə belə idi: DİM subyektiv təsiri minimuma endirmək üçün texnologiyanın tətbiqindən geniş istifadə edir. DİM, eyni zamanda, "Educational Testing Services", UNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığı genişləndirib. Bu, Azərbaycan tələbələrinin DİM tərəfindən aparılan test imtahanlarının legitimliyinə olan inamının bərpasına kömək edib. DİM ali təhsildə test üsulunun obyektivliyi və şəffaflığının təkmilləşdirilməsi ilə yanaşı, 2012-ci ildən bəri orta məktəblərdə buraxılış imtahanlarını da standartlaşdırılmış test üsulu üzrə keçirməyə başlayıb. Sizə maraqlı ola bilər ki, onları işlərini genişləndirməyə nə vadar etdi? 2012-ci ilə qədər məktəblərdə ilk sıralarda olan şagirdlər ali məktəblərə qəbul imtahanlarında heç də həmişə yüksək nəticə göstərmirdilər. İlk baxışdan orta məktəblərdə test üsullu qiymətləndirmənin tətbiqi bir qədər subyektiv görünə bilərdi. Ancaq DİM buraxılış imtahanlarını keçirməyə başlayandan sonra şagirdlərin həmin imtahanlardakı nəticələri ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələrlə uyğunluq təşkil etməyə başladı. Bəlkə də ən mühüm məqam odur ki, DİM-in təcrübəsi və faktlara əsaslanan yanaşma tətbiq etməsi, əksəriyyət tərəfindən etibarlı və obyektiv hesab edilməyən standartlaşdırılmış test imtahanlarına ictimai etimadın bərpa olunmasını sürətləndirib. Bu isə öz növbəsində, illər keçdikcə qəbul imtahanlarında iştirak etmək üçün müraciətlərin sayının artmasına, eləcə də kənd yerlərində aztəminatlı və məcburi köçkün ailələrindən olan şagirdlərin ali təhsil alması istiqamətində geniş imkanlara yol açıb. Standartlaşdırılmış test imtahanına ictimai inamın bərpa olunması ilə test imtahanlarına hazırlıq sənayesi yaranıb və bu, Azərbaycan müəllimlərinin iş imkanlarını genişləndirib.

Burada Azərbaycanla bağlı ən mühüm məsələ isə budur: DİM tənqidi siyasi iradənin istənilən növ məntiqli transformasiyada necə mühüm rol oynadığını bizə öz gördüyü işlərlə sübut etdi.

Azərbaycanın inkişaf yolu təhsildə ruhlandırıcı və transformasiyalı tarixçələrin mövcud olduğunu bizə öyrədir. Azərbaycanın standartlaşdırılmış test təcrübələrinin transformasiyasında əldə etdiyi uğurun şahidi olduqca ümid edirəm ki, ölkə millətin təhsili və iqtisadiyyat arasında daha geniş əlaqəni uğurla inkişaf etdirəcək".

Konfransda Böyük Britaniyanın Durham Universitetinin professoru Piter Tims "İlkin qiymətləndirmənin üstünlüyü: ibtidai təhsildə potensialın və inkişafın ölçülməsi" mövzusunda əsas məruzə ilə çıxış edib. O, məruzəsində ilkin təhsildə bilik və bacarıqların səmərəli qiymətləndirilməsini təşkil etməyin zəruriliyini bildirib. Qeyd edib ki, təhsil proqramlarını indikindən daha qətiyyətli şəkildə tərtib etməklə fərdi problemlər yaranmamışdan əvvəl onları müəyyənləşdirib aradan qaldırmaq mümkün olar. Növbəti il ikinci bir qiymətləndirmənin aparılması daha ciddi şəkildə tələbələrin xüsusi ehtiyaclarının müəyyən edilməsinə, onların il ərzində şagird, məktəb və ölkə səviyyəsində hesab, oxu, sosial və fiziki inkişaf sahələri üzrə inkişaf səviyyələrini ölçməyə kömək edəcək. Yetərli səviyyədə olmayan TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) və PISA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) kimi təhsil nailiyyətlərinin qiymətləndirilməsi tədqiqatlarına güvənməkdənsə, ilkin qiymətləndirmənin düzgün aparılması bütün təhsil sistemlərinin təsirinin dəyərləndirilməsi üçün təməl rolunu oynayacaq.

Piter Timsin fikrincə, dünyada təhsil sahəsində yüzlərlə ilkin qiymətləndirmənin fəaliyyət göstərdiyi bir dönəmdə niyə bu sahədə böyük irəliləyişləri görmədiyimizi aydınlaşdırmaq ağlabatandır. Cavab isə budur ki, qarşılaşdığımız çağırışlar son dərəcə ciddidir. Bunların sırasında bir neçə əsas olan aşağıdakılardır; uşaqların diqqət yayınıqlığı (qısa konsentrasiyası dövrü), onların çoxunun ilkin təhsilə başlayarkən oxuya və yaza bilməməsi, müvafiq məktəbəqədər tədris planının olmaması, cavabdehlik üzrə testin mənfi nəticələri və uşaqların bilik və bacarıqlarının ibtidai təhsil üzrə ekspertlər tərəfindən dəyərləndirilməsinə qarşı geniş yayılmış narazılıq.

Bu yaşda qısa, lakin daha əhatəli qiymətləndirmə aparılmalıdır. Bu qiymətləndirməni aparan şəxsin kimliyindən asılı olmayaraq prosesin eyni nəticələri olmalı, həm də müxtəlif dillər və mədəniyyətlərlə müqayisə edilə bilən olmalıdır. Həmin qiymətləndirmə prosesi müəllimlərin də rəğbətini qazanmalıdır. Bu məqsədə tam nail olunmasa belə, bu qiymətləndirmə nəyin üzərində çalışmalı olduğumuzu nümayiş etdirir.

Piter Tims irəli sürdüyü fikirləri konkret nümunələrlə əsaslandırıb.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransı sessiyalarla davam edib.

Konfrans çərçivəsində "İbtidai təhsildə test", "Dilin qiymətləndirilməsi", "Qiymətləndirmə sistemləri", "Sinif qiymətləndirməsi", "Qiymətləndirmə fəlsəfələri" mövzularında sessiyalar keçirilib.

Sessiyalarda çıxış edənlər mövzularla bağlı apardıqları araşdırmalardan və təmsil etdikləri ölkələrin təcrübəsindən danışıblar.

Niderlandın Cito təhsilin ölçülməsi institutundan Frans Kleintjes təlim nəticələrini artırmaq üçün şagirdlərin monitorinq sisteminin Kürasaoda tətbiqindən danışıb.

Dövlət İmtahan Mərkəzinin əməkdaşları Məhəmməd Adıgözəlov və İlahə Gülalıyeva "5-6 yaşlı uşaqların intellektual inkişaf səviyyəsini müəyyənləşdirmək üçün testin hazırlanması" mövzusunda çıxış ediblər. Qeyd olunub ki, praktik psixoloqlar üçün metodik ədəbiyyatın əksəriyyətində çox vaxt düzgün sınaqdan keçirilməmiş alətlər yer alır. Digər tərəfdən, bəzi mütəxəssislər və məktəblər uşaqlara diaqnoz qoymaq üçün xarici norma və standartları tətbiq edirlər.

Diqqətə çatdırılıb ki, tədqiqat zamanı mövcud zəka testləri nəzəri və metodoloji təhlil edilib, məktəbdə uşaqların psixoloji problemlərinə aydınlıq gətirilməyə çalışılıb. Araşdırma zamanı məktəb yaşı çatmamış uşaqların zehni inkişafının ümumi qəbul edilmiş quruluşundan, intellektual inkişaf səviyyəsinin hərtərəfli diaqnozu üçün metodologiyadan, valideynlər və müəllimlər üçün ayrıca anketlərdən istifadə edilib, sosial-psixoloji amillər nəzərə alınıb.

"Dil biliklərinin qiymətləndirilməsi" sessiyasında qiymətləndirmədə və rəqəmsal savadda istifadə olunan dilin araşdırılması, qlobal miqyasda ingilis dili və Çin dili standartlarının müqayisəli təhlili istiqamətində müzakirələr aparılıb. Həmçinin sessiyada Kembric Qiymətləndirmə departamentindən Daniel Broker və Dövlət İmtahan Mərkəzindən Vəli Hüseyn "Qiymətləndirmə və qərar qəbulu: ingilis dilinin qiymətləndirilməsi üzrə Kembric və Azərbaycan arasında bilik mübadiləsi və əməkdaşlıq" mövzusunda təqdimat ediblər.

"Qiymətləndirmə sistemləri" sessiyasında Dövlət İmtahan Mərkəzinin əməkdaşı Pərviz Kazımov "Fərdi, institusional və ümummilli qərar qəbulu üçün inteqrasiya olunmuş qiymətləndirmə sistemi ilə əldə edilən məlumatlardan səmərəli istifadə yolları" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Dövlət İmtahan Mərkəzi orta məktəblərin buraxılış imtahanları, universitetlərə qəbul, habelə dövlət qulluğuna namizədlərin seçimi daxil olmaqla kompleks qiymətləndirmə sistemini idarə edir. Qurumun fəaliyyətinin ilk mərhələlərində mərkəzləşdirilmiş imtahan sisteminin yeganə məqsədi universitetlər üçün tələbələrin qərəzsiz seçilməsini təmin etmək olsa da, sonradan fərdi və institusional qərar qəbulu üçün nəhəng məlumat istehsalı platformasına çevrilərək texniki və tədqiqat potensialını artırıb. Platforma, namizədlər



və təşkilatlar daxil olmaqla bütün maraqlı tərəflərin tələblərini uyğunlaşdırmaq üçün hazırlanıb. Çeviklik, texnologiyaya əsaslanan dizayn və elmi yanaşma, sistemin fasiləsiz və bəzən fərdi və institusional potensialın artırılmasına yönəlmiş müsbət dəyişikliklərin və yeniliklərin hərəkətverici qüvvəsi kimi çıxış etməsinə imkan verir.

Dövlət İmtahan Mərkəzi tərəfindən idarə olunan mütəxəssislər və müəllimlər şəbəkəsi müxtəlif qiymətləndirmə vasitələrini inkişaf etdirir, təhsil müəssisələrinin, dövlət qurumlarının və şəxslərin xüsusi tələblərinə uyğun olaraq qiymətləndirmə prosedurlarını idarə edir. 2016-cı ildən Dövlət İmtahan Mərkəzi dövlət qulluğuna namizədlərin seçilməsini idarə etməyə başlayıb. Bu, ali təhsil səviyyəsində qiymətləndirmənin təsdiqlənməsi və universitet təhsilinin real karyera tələbləri ilə uzlaşdırılması üçün yeni perspektiv açır.

"Sinif qiymətləndirməsi" sessiyasında Azərbaycan Müəllim İnkişaf Mərkəzinin direktor müavini Xədicə Cəfərova "Sinif qiymətləndirmələrindən istifadə etməklə tədris haqqında əsaslandırılmış qərar qəbulu" mövzusunda çıxış edib. Diqqətə çatdırıb ki, yeni qiymətləndirmə sistemini mənimsəmək və faydalarını artırmaq üçün dəqiq konsepsiya hazırlanmalıdır. Bu sənəd sinif qiymətləndirmələrinə konseptual səviyyədə baxır və tədris praktikasının təkmilləşdirilməsi məqsədilə qərar verməkdə rolunu təhlil edir. Beləliklə, diaqnostik və formativ qiymətləndirmələrə dinamik baxılır (məlumatların toplanması, təfsiri və bundan sonra nə ediləcəyi barədə qərar); summativ qiymətləndirməyə statik baxılır (tələbənin akademik fəaliyyətinin vahid, dövlət standartları və s. baxımından qiymətləndirilməsi).

"Qiymətləndirmə fəlsəfələri" sessiyasında toxunulan problemlərdən biri "IQ testlərində məntiq sualları nə qədər məntiqlidir?" mövzusu olub. Bu barədə çıxış edən ADA Universitetindən Yaqub Əliyev sualların determinist (bilik və bacarıqlar əsasında həll edilə bilən) və ehtimal olunan (şansın olması ilə həll edilə bilən) növlərinə diqqəti çəkib. Bildirib ki, şans elementləri olan məntiq suallarından qəbul və ya buraxılış imtahanlarında, işə qəbul testlərində istifadə etmək düzgün deyil.

Günün davamında "Qiymətləndirmənin yoxlanılması sistemləri, "Qiymətləndirmənin tərtib olunması", "İbtidai təhsildə test", "Müəllimlərin sertifikasiyası", "Qərar qəbuletmə" mövzularında sessiyalar keçirilib.

Bakı Avropa Liseyinin direktoru Zülfiyyə Veysova "Müəllim standartları rubrikaları əsasında müəllim peşə inkişafının müəyyənləşdirilməsi" mövzusunda məruzə edib. O, 2014–2015-ci illərdə Azərbaycanda ilk dəfə olaraq müəllim standartları hazırlandığını xatırladıb. Diqqətə çatdırıb ki, hər alt standartlarla əlaqəli rubrikalar müəllimlərə peşəkar inkişafını dörd səviyyəyə görə qiymətləndirməyə imkan verir: az təcrübəli, təcrübəli, peşəkar və lider. Rubrikalardan istifadə edərək müəllimlər karyera pillələrində təcrübələrini qiymətləndirmək və həmkarlarından rəy almaq üçün əsas sahələri müəyyən edə bildilər. Tədqiqat göstərdi ki, hazırlanmış rubrikalardan həm müəllimin peşə səviyyəsini qiymətləndirmək, həm də peşəkar inkişaf ehtiyaclarını müəyyən etmək, müəllimin məktəb rəhbərliyi və ya hökumət tərəfindən dəstəklənə biləcəyi ən vacib sahələri aydınlaşdırmaq üçün istifadə edilə bilər.

Sessiyalarda "Dəyişən məlumatlar: qiymətləndirmələrin qiymətləndirilməsi üçün çərçivə", Avtomatik qiymətləndirmə sistemini necə dəyərləndirmək olar?", "İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi", "Yüksək səviyyə üçün çoxmərhələli testin hazırlanması və inkişafı", "PISA 2021 və ondan kənarda: yaradıcı düşüncə üçün innovativ təlim və qiymətləndirmə həllərinin dizaynı və inkişafı", "Oxu üzrə birinci sinif skrininq testi üçün predmetlər hazırlanması: baza testi", "Kompüterləşdirilmiş ssenari əsaslı qiymətləndirmədə fərqli test kontekstinin rolu" və digər mövzularda məruzələr dinlənilib.

Konfransın işıqlandırılmasında AZƏRTAC Dövlət İmtahan Mərkəzinin rəsmi media tərəfdaşıdır. IAEA-nın üzvü olan Dövlət İmtahan Mərkəzi bu təşkilatın keçirdiyi tədbirlərdə mütəmadi iştirak edir. IAEA 1975-ci ildən başlayaraq, hər il bu cür konfranslar keçirir. Azərbaycan hələ 2007-ci ildə MDB ölkələri arasında IAEA tərəfindən belə bir konfrans keçirilən ilk ölkə olub.

IAEA 2019 beynəlxalq konfransı sentyabrın 27-dək davam edəcək.

***AZƏRTAC***

# Ukrayna Ermənistanla onun öz dilində danışır

## və ya iki ölkə arasında siyasi gərginliyin səbəbləri



**Ukrayna dövləti xarici ölkələrlə münasibətlərini yenidən çözməyə başlayıb. Xüsusilə, ərazi bütövlüyünün dəstəklənməsi məsələsində ikili oyun oynayan ölkələrə münasibətdə rəsmi Kiyev daha sərt reaksiya verməyə başlayıb. Poroşenko hakimiyyəti dövründə bu siyasətdə yumşaqlıq göstərilsə də, Zelenski komandası daha açıq və qəti mövqe nümayiş etdirir. Hətta bu günlərdə Prezident Vladimir Zelenski Ukraynanın suverenliyini və ərazi bütövlüyünü daha qarantlı etmək üçün yeni beynəlxalq müqavilələrə ehtiyac olduğunu bildirib.**

Postsovet məkanına nəzər salsaq, Ukraynanın diplomatik münasibətlərdə ən çox gərginlik yaşadığı ölkə Ermənistandır. Bu gərginlik son dörd ilin ən pik səviyyəsindədir. Onu da xatırladaq ki, 2015-ci ildən ölkənin özəl və dövlət hərbi müəssisələri Ermənistanla hərbi əməkdaşlığı dayandırıb. Ötən illər ərzində Ukrayna tərəfi diplomatik münasibətlərin normallaşması üçün Ermənistana bir neçə dəfə şans versə də, rəsmi Yerevan bu jestlərdən nəticə çıxarmayıb. Bir neçə ay öncə Yerevanda Krım günlərinin keçirilməsi, beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də Ukraynaya dəstək verilməməsi rəsmi Kiyevi Ermənistanla onun öz dilində danışmağa vadar edib. Əldə etdiyimiz məlumata görə, bu günlərdə Ukrayna Ermənistandakı səfirini geri çağırıb və hazırda səfirliyə müvəqqəti işlər vəkili rəhbərlik edir. Bu gərginliyin nəticəsi olaraq Ukrayna Ermənistana yeni səfir göndərmək niyyətində deyil.

İki ölkə arasında diplomatik gərginliyin artmasının digər əsas səbəblərindən biri də Azərbaycanla bağlıdır. Azərbaycan və Ukrayna arasındakı mövcud strateji əməkdaşlıq, onların beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etməsi, bir-birinin ərazi bütövlüyünü dəstəkləməsi Ermənistanı əməllicə qıcıqlandırmağa başlayıb. Bu günlərdə Ukrayna Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsində "yerli özünüidarəetmə orqanları"na keçirilən "seçkilər"i tanımadığı və qanunsuz hesab etdiyi barədə rəsmi bəyanat yaydı. Bu bəyanat sonradan Ukrayna Xarici İşlər Nazirliyinin rəsmi veb-saytında yerləşdirildi. Bundan sonra Azərbaycan Xarici İşlər Nazirliyi də Krımda keçirilən "seçkiləri" tanımadığını bəyan etdi.

Sözsüz ki, Ermənistan Azərbaycan ilə Ukraynanın daim yüksələn xətlə inkişaf edən əməkdaşlığına, qarşılıqlı səmimiyyətə əsaslanan dostluq münasibətinə biganə qala bilməz. Ona görə də Ermənistanın Ukraynadakı səfiri antiazərbaycan təbliğatı aparmaq üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır. Ancaq çifayda, çünki Ukrayna Azərbaycanla strateji tərəfdaşlığını daha da gücləndirməkdə maraqlıdır. Bu, siyasi müstəvidə olduğu kimi, iqtisadi münasibətlərdə də özünü açıq-aydın büruzə verir. 2018-ci ildə Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi son 5 ilin rekord göstəricisini yeniləyib. Bu il isə ticarət dövriyyəsinin 1 milyard dollara yaxın olacağı proqnozlaşdırılır.

*Emil HÜSEYNLİ,*
*AZƏRTAC-ın xüsusi müxbiri*

**Kiyev**

**Milli Məclisin deputatı Aydın Hüseynov bildirib ki, 25 il əvvəl sentyabrın 20-də "Əsrin müqaviləsi" ilə Azərbaycan uğurlu və olduqca mühüm bir tarixi başlanğıca imza atdı. Deputat qeyd edib ki, "Əsrin müqaviləsi" ulu öndər Heydər Əliyevin qətiyyətli addımları, uzaqgörən siyasəti nəticəsində mümkün oldu: "O zaman Azərbaycan müstəqilliyini yeni qazanmışdı, ölkədə xeyli çətinliklər var idi, beynəlxalq şirkətlər Azərbaycana investisiya qoymağa maraqlı deyildilər. Lakin ulu öndər Heydər Əliyev dünyanın iri şirkətlərini Azərbaycana gətirməyi bacardı və tarixi müqavilə imzalandı".**



# Azərbaycanın bugünkü uğurlarında "Əsrin müqaviləsi"nin böyük əhəmiyyəti oldu



Deputat vurğulayıb ki, "Əsrin müqaviləsi" bağlandıqdan sonra ölkə iqtisadiyyatında çox mühüm dəyişikliklər baş verdi: "Azərbaycana investisiya axını oldu və ölkə iqtisadiyyatında artım müşahidə edilməyə başlandı. Elə ilkin mərhələdə ölkənin iqtisadi tənəzzül dövrü bitdi və 1995-ci ildə ilk dəfə olaraq ölkə iqtisadiyyatında ümumi daxili məhsulda 0,1 faiz artım əldə olundu".

A.Hüseynov əlavə edib ki, sonrakı dövrdə neftdən əldə edilmiş gəlirlər ölkəmizin sürətli inkişafına şərait yaratdı: "Neftdən gələn gəlirlər ümumi inkişafımıza sərmayə kimi qoyuldu, sosial məsələlərin həlli üçün şərait yaratdı, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə təkan verdi".

Deputat bildirib ki, Azərbaycanın bugünkü siyasi və iqtisadi uğurlarının əsasında məhz "Əsrin müqaviləsi"nin böyük əhəmiyyəti oldu: "Sonrakı illərdə Bakı–Tbilisi-Ceyhan boru kəmərinin işə düşməsi "Əsrin müqaviləsi"nin mahiyyətini daha da artırdı. Bu sənəd təkcə iqtisadi baxımdan deyil, siyasi baxımdan da Azərbaycana böyük faydalar gətirdi, ölkəmizin beynəlxalq aləmdə nüfuzu artdı, Azərbaycan dünyada etibarlı bir tərəfdaş kimi qəbul olundu".

# Əlillərin Mərkəzləşdirilmiş Elektron İnformasiya Bazası yaradılır

❒ ***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sistemində əlilliyi olan şəxslərin Elektron İnformasiya Bazası yaradılır.***

Nazirlikdən bildiriblər ki, informasiya bazasına əlilliyi olan şəxslər barədə zəruri məlumatlar daxil ediləcək. Məlumat üçün qeyd edək ki, 2015-ci ilin dekabr ayından etibarən ölkəmizdə əlilliyin qiymətləndirilməsi prosesi elektronlaşdırılıb. Həmin dövrə qədər müddətsiz əlillik təyinatı aparılmış əlilliyi olan şəxslər barədə elektron sistemdə məlumatlar mövcud olmadığından, yeni informasiya bazasına qeyd olunan dövrə qədər müddətsiz əlillik təyinatı aparılmış 170 minədək şəxs barədə məlumatlar daxil ediləcək.

Bazada müddətsiz əlillik dərəcəsi olan şəxslərlə yanaşı, müddətli əlillik təyinatı aparılmış vətəndaşların da məlumatları toplanacaq.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***




# Los-Anceles səmalarında və küçələrində Qarabağ həqiqətləri




**Ermənistanın baş naziri Nikol Paşinyan sentyabrın 22-də Los-Ancelesə səfər edərək erməni icmasının keçirdiyi mitinqdə çıxış edib. Xatırladaq ki, yarım milyonadək ermənin yaşadığı Los-Anceles vilayəti ABŞ-da ermənilərin ən çox məskunlaşdığı yerdir.**

Bunu nəzərə alaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti barədə yerli əhalini geniş şəkildə məlumatlandırmaq üçün həmin gün Los-Anceles səmalarına ingilis dilində böyük hərflərlə "Karabakh is Azerbaijan! End the Occupation" (Qarabağ Azərbaycanındır! İşğala Son Qoy!) şüarını daşıyan təyyarələr qaldırılıb. Bütün günü Los-Anceles üzərində dövrə vuran şüar yerli əhali tərəfindən böyük maraqla qarşılanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğundan məlumat verilib.

Bundan əlavə, üzərində Qarabağ həqiqətlərini əks etdirən rəqəmsal plakatların olduğu xüsusi maşınlar gün ərzində Los-Ancelesin ən müxtəlif guşələrini dolaşaraq, böyük sayda şəhər sakinini Ermənistanın işğalçılıq siyasəti barədə məlumatlandırıb. Plakatlarda Azərbaycanın 20 faiz ərazisinin işğal olunduğu, 1 milyonadək soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi, işğal altında olan ərazilərimizdə Azərbaycan mədəniyyətinə qarşı soyqırımı həyata keçirildiyi, Xocalı soyqırımı və digər məsələlər barədə məlumat verilib.

Qeyd edək ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev səfər ərəfəsində Los-Anceles şəhər və vilayət rəhbərliyinə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirən bir ölkənin baş nazirinin səfərinə etiraz edən məktublar göndərib. Həmçinin N.Paşinyanın Los-Ancelesə səfəri ABŞ mətbuatında da tənqid olunub. Belə ki, ABŞ-ın ən böyük yəhudi qəzeti olan, Los-Ancelesdə nəşr edilən "Jewish Journal" qəzetində, həmçinin "NewzBlaze" qəzetində müvafiq məqalələr dərc olunub. Məqalələrdə Ermənistanın öz qonşusuna qarşı işğalçılıq siyasəti həyata keçirən kriminal bir dövlət olduğu, beynəlxalq hüququ kobud şəkildə pozmaqda davam etdiyi, Ermənistanda nasist generalların milli qəhrəman elan olunduğu, antisemitizmin geniş yayıldığı qeyd olunaraq, belə bir ölkənin baş nazirinin Los-Ancelesdə qəbul olunmasının qeyri-məqbul olduğu bildirilib. Məqalələr sosial şəbəkələrdə geniş yayılaraq, sadə amerikalılar tərəfindən N.Paşinyanın səfərinin kəskin tənqidinə səbəb olub.

***AZƏRTAC***




# Fransalı alimlər BDU-nun Nano Araşdırmalar Mərkəzi ilə əməkdaşlıq edəcəklər





**Fransanın Monpelye Universitetinin alimləri – professor Fransua Henn və gənc tədqiqatçı Adrien Novrin Bakı Dövlət Universitetinin Nano Araşdırmalar Mərkəzində olublar.**

Universitetdən verilən məlumata görə, AMEA Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, Fizika İnstitutunun direktoru, akademik Nazim Məmmədov və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Yüksək Texnologiyalar üzrə Tədqiqat və İnkişaf Mərkəzinin direktoru, professor Sevda Abdullayevanın da iştirak etdiyi görüşdə qonaqlara mərkəz və yerinə yetirilmiş tədqiqat işləri barədə məlumat verilib.

Dünya elminin tələblərinə cavab verən istiqamətlərdə müştərək elmi-tədqiqat və inkişaf layihələrinin yerinə yetirilməsinin əhəmiyyətindən danışan rektor Elçin Babayev alim və tədqiqatçıların səfər mübadilələri yolu ilə kadr hazırlığı, birgə elmi konfranslar, simpoziumlar, seminarlar və təcrübə kurslarının təşkili məsələlərinə toxunub.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

***"Xalq qəzeti"***

**Çinin Azərbaycandakı səfiri Qo Min bildirib ki, 2019-cu ilin yanvar–avqust aylarında Çinlə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 1,5 milyard dollara çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 104 faiz çoxdur.**

# "Çinlə Azərbaycan arasında ticarət dövriyyəsi iki dəfədən çox artıb"





İkitərəfli əməkdaşlıq barədə danışan səfir qeyd edib ki, ölkələr "Bir kəmər, bir yol" təşəbbüsünün birgə reallaşdırılmasında böyük perspektivlərə malikdir. Qo Min xatırladıb ki, bu ilin aprel ayında Azərbaycan Prezidenti İlham Əliyev "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində beynəlxalq əməkdaşlıq üzrə ikinci Yüksək Səviyyəli Forumda iştirak etmək üçün Çinə səfər edib və dövlət başçıları ikitərəfli münasibətlərin, müxtəlif sahələrdə işgüzar əməkdaşlığın daha da inkişafı ilə bağlı vacib razılıq əldə ediblər.

Səfir əlavə edib ki, Azərbaycan Çinlə münasibətləri diplomatik prioritet olaraq nəzərdən keçirir: "Bu ilin əvvəlindən iki ölkə arasında yüksək səviyyəli səfərlər baş tutub və qarşılıqlı siyasi etimad daha da yüksəlib".

***"Xalq qəzeti"***

# Mərdəkan qalasının bərpa layihəsi hazırdır

**Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mətbuat katibi Fariz Hüseynov bildirib ki, Mərdəkan qalasının bərpa layihəsi hazırdır.**

Fariz Hüseynovun sözlərinə görə, bərpa işləri Dövlət Xidmətinin nəzarəti altında Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) tərəfindən həyata keçiriləcək: "Bu, Azərbaycanda tarixi abidələrin TİKA tərəfindən bərpa olunması baxımından ilk layihə olacaq. Böyük Mərdəkan qəsrinin bərpa layihəsi yekunlaşıb, yaxın günlərdə bərpa işlərinə başlanılacaq".

Qeyd edək ki, Bakının Mərdəkan qəsəbəsində yerləşən eyniadlı qala XII əsrdə – 1187–1188-ci illərdə Şirvanşah I Axsitan tərəfindən tikilib. Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaldılmış qaladan müxtəlif vaxtlarda müdafiə məqsədilə, eləcə də müşahidə məntəqəsi, bəzi dövrlərdə isə qəsr kimi istifadə edilib. XV əsrə aid Tuba Şah məscidi isə 1481–1482-ci illərdə inşa edilib.

**"Xalq qəzeti"**



# “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması məqsədilə yeni kompressor stansiyası istifadəyə verilib

❒ ***Sentyabrın 23-də Siyəzəndə, SOCAR-ın əməliyyatçı olduğu “Zağlı-Zeyvə” yatağı ərazisində səmt qazının yığılması məqsədilə quraşdırılmış kompressor stansiyasının açılışı olub.***



Kompressor stansiyası SOCAR və BMT İnkişaf Proqramının (BMT İP) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən “Azərbaycanın yanacaq istehlakı sektorunda karbon emissiyalarının azaldılmasını təmin edən Milli Fəaliyyət Planları” (NAMA) layihəsi çərçivəsində inşa edilib.

Açılış mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, BMT İP-nin Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti və SOCAR-ın ekologiya üzrə vitse-prezidenti, layihənin rəhbəri Rəfiqə Hüseynzadə iştirak ediblər.

Spesifik vəzifəsi SOCAR-ın İqlim Dəyişikliyinin Təsirlərinin Azaldılması Strategiyasını dəstəkləməkdən ibarət olan NAMA layihəsinin 3-cü komponenti çərçivəsində SOCAR-ın “Siyəzənneft” neft və qazçıxarma idarəsinin (NQÇİ) “Zağlı-Zeyvə” yatağı pilot ərazi olaraq seçilib və burada səmt qazının yığılması məqsədilə birgə işlər görülüb. Ərazidəki 3 qaz yığım məntəqəsində yeni kompressor və separator avadanlıqları, soyuducu sistemlər və onlayn nəzarət sistemi quraşdırılıb, 32 kilometrlik əsas qaz boru xətti çəkilib. İki il ərzində davam etmiş layihənin icrası nəticəsində ildə 6,8 milyon kubmetr səmt qazının yığılması planlaşdırılır. Layihənin başlıca özəlliyi yığılacaq səmt qazının emal olunduqdan sonra əhalinin istehlakına yönəldilməsidir. Beləliklə, 15 ətraf kənd üzrə 1250 abonentin təbii qazla təchizatı təmin olunacaq.



NAMA layihəsi SOCAR və BMT İP tərəfindən 2015-ci ildən həyata keçirilir. Layihə ölkədə enerjiyə qənaət edən və karbon emissiyası aşağı olan texnologiyaları dəstəkləyir. 2013-cü ildən başlayaraq, SOCAR hər il birgə müəssisələrində və digər əməliyyatçı şirkətlərdə atmosferə atılan çirkləndirici qazların ümumi miqdarının hesablanmasını həyata keçirir.

**AZƏRTAC**

# Yeni qurğular xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək

❒ ***Birləşmiş Millətlər Təşkilatının (BMT) dəstəyi ilə 6 kompressor, 6 seperator və 3 soyuducu qurğu quraşdırılıb. Bu, ekoloji layihədir. BMT-nin İnkişaf Proqramı ilə SOCAR arasındakı müqavilədə 3 komponent iştirak edir. Bu komponentlərdən birincisi enerji səmərəliliyidir ki, biz bunu “Azərkimya” İstehsalat Birliyində quraşdırmışıq. İkinci komponent enerji səmərəliliyi olan nəqliyyat vasitələrindən istifadədir. Bununla əlaqədar BMT tərəfindən bizə hibrid maşınlar, simulyator qurğusu verilib. Müqavilənin son mərhələsində isə havaya buraxılan alçaqtəzyiqli qazları toplayıb əhalinin istifadəsinə vermək öz əksini tapır.***

Bu barədə SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə Siyəzəndəki neft yataqlarında səmt qazını ayırmaq üçün quraşdırılan kompressorlar və ayırma qurğularının işə salınması mərasimində bildirib.

Rəfiqə Hüseynzadə jurnalistlərə müsahibəsində deyib ki, qurğular BMT tərəfindən quraşdırılıb, 32 kilometr məsafədə borunun çəkilməsi isə SOCAR tərəfindən həyata keçirilib. “Ümumilikdə 3 stansiya qurulub və ay ərzində 583 min kubmetr qaz yığılacaq. Bu kompressorlar işə salındığı gündən 2-3 kəndə qazın verilməsinə də başlanılacaq. Yeni kompressorlar və ayırma qurğuları xam neftdən səmt qazını yığmağa və onu Siyəzənin 15 kəndində istehlakçılara çatdırmağa kömək edəcək. 600-dən çox ailənin



1250 nəfər üzvü bu proqramdan yararlanacaq” – deyə, Rəfiqə Hüseynzadə söyləyib.

**AZƏRTAC**

# Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib






❒ ***Sentyabrın 23-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı – Krallıq Elan Olunması Günü münasibətilə rəsmi qəbul təşkil edib.***

Hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr çıxış edib. Ölkəsinin Azərbaycanla əlaqələri möhkəmləndirmək kursunu gələcəkdə də davam etdirəcəyini bildirən səfir vurğulayıb ki, 1932-ci ildə Krallığın birləşməsindən sonra Səudiyyə Ərəbistanı sürətli inkişaf yolu keçib. Bu il milli bayram "Zirvəyədək əzmkarlıq" şüarı altında qeyd olunur.

Səfir deyib ki, Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini ilk olaraq tanıyan ölkələrdən biridir. Bu gün ölkələrimiz arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Əməkdaşlığın gücləndirilməsində qarşılıqlı səfərlərin mühüm rolunu vurğulayan səfir Azərbaycanın Baş Naziri Novruz Məmmədovun Krallığa səfərini, ölkəsinin ədliyyə nazirinin Azərbaycana səfərlərini xatırladıb. O qeyd edib ki, bu səfərlər zamanı iki ölkənin maraqlarına uyğun saziş və memorandumlar imzalanıb.

Daha sonra maliyyə naziri Samir Şərifov çıxış edərək Azərbaycan hökumətinin və Prezidentinin Səudiyyə Ərəbistanı xalqına səmimi təbriklərini çatdırıb. Nazir bildirib ki, iki ölkə arasında qardaşlıq əlaqələri qarşılıqlı hörmət və İslam irsinə söykənir, xalqlarımız bir-birinə tarixi, dini və mədəni köklərlə bağlıdır. Keçirilən yüksək səviyyəli mühüm görüşlər ölkələrimizin siyasi-iqtisadi əlaqələrinin genişlənməsinə təkan verib. İndiyədək Azərbaycan ilə Krallıq arasında 20 sənəd imzalanıb və hazırda 8 sənəd üzrə danışıqlar gedir.

S.Şərifov qeyd edib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir. “Səudiyyə Ərəbistanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəkləyir, işğalçı Ermənistanla əlaqələr qurmaqdan imtina edir. Azərbaycan Səudiyyə Ərəbistanının bu prinsipial mövqeyini yüksək qiymətləndirir", – deyə nazir vurğulayıb.

**AZƏRTAC**

# Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli bağlanış mərasimi olub

❒ ***Bakıda keçirilən bədii gimnastika üzrə 37-ci dünya çempionatının sentyabrın 22-də təntənəli bağlanış mərasimi olub.***



Mərasimdə Azərbaycan, Ukrayna və Bolqarıstanın qrup hərəkətləri komandaları, həmçinin gimnastımız Veronika Qudis kompozisiyalarını təqdim ediblər.

Tədbirdə rəqqaslarımızın və nağaraçıların şousu tamaşaçıların böyük coşqusu ilə qarşılanıb.

On dörd ildən sonra ölkəmizin bədii gimnastika üzrə dünya çempionatına yüksək səviyyədə evsahibliyi etdiyini bildirən Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov deyib: “Yüksək rəqabət şəraitində keçən çempionatda gimnastların maraqlı çıxışlarını izlədik. “Tokio 2020” Yay Olimpiya Oyunları öncəsi Bakıda təşkil olunan lisenziya xarakterli dünya çempionatı böyük önəm daşıyırdı. Artıq idmançıların həyəcanı geridə qaldı. Dünya çempionatı cari il ölkəmizdə gimnastika üzrə keçirilən sonuncu beynəlxalq turnir idi. Növbəti irimiqyaslı yarışlarda görüşənədək”.

Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe deyib: “Nağıllar – hətta ən yaxşıları belə bitməlidir. Bir həftəlik yarışlardan sonra nağıl kitabımızı bağlamağın vaxtıdır. Bütün gimnastları gözəl çıxışlarına görə təbrik edirəm. Nağıl bəzi gimnastlar üçün “Tokio 2020” Yay Olimpiya Oyunlarında davam edəcək”.

Yüksək təşkilatçılığa görə minnətdarlığını ifadə edən M.Vatanabe deyib: “Azərbaycan Gimnastika Federasiyasının və dünya çempionatının yerli Təşkilat Komitəsinin üzvlərinə yüksək səviyyəli təşkilatçılığa görə minnətdarlığımı bildirirəm. Həmçinin gələcək nəslə gimnastika məşəlini ötürməyə kömək edən dünya çempionatının rəsmi səfiri Yana Batırşinaya da təşəkkürümü çatdırıram. Növbəti il Olimpiya Oyunlarının möcüzəsini yaşadan daha bir nağılı dinləmək üçün hamınızı Tokioda yenidən görməyə şad olarıq”.

Sonra M.Vatanabe bədii gimnastika üzrə 37-ci dünya çempionatını bağlı elan edib.

Gənc gimnastımız Ceyla Əlizadə FIG-in bayrağını İ.İsmayılova təqdim edib. Gənclər və idman nazirinin müavini bayrağı M.Vatanabeyə verib. FIG-in prezidenti isə bayrağı dəfələrlə Avropa və dünya çempionu olan, “Atlanta 1996” Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Y.Batırşinaya ötürüb.

Sonda dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış “Birinci ol” mahnısını ifa edib.

“Nağıllar gerçəkləşəcək” devizi altında təşkil olunan dünya çempionatında 61 ölkədən 300-dən artıq gimnast iştirak edib. Gimnastlar çempionatda 9 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastı Z.Ağamirova və qrup hərəkətləri komandamız çoxnövçülük yarışlarında “Tokio 2020”yə vəsiqə qazanıblar.

**AZƏRTAC**

# Bakının evsahibliyi etdiyi bədii gimnastika üzrə 37-ci dünya çempionatına yekun vurulub

❒ ***Bakıda təşkil olunan bədii gimnastika üzrə 37-ci dünya çempionatına sentyabrın 22-də yekun vurulub.***

“Tokio 2020” Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatın yeddinci günündə qrup hərəkətləri komandaları final mərhələsində mübarizə aparıblar. İdmançılar 5 top, 2 cüt gürz və 3 halqa ilə proqramlarını təqdim ediblər.

Yarışda qrup hərəkətləri komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Üç halqa və iki cüt gürzlə final yarışlarında Azərbaycan, Yaponiya, Bolqarıstan, Rusiya, Belarus, İsrail, İtaliya və Çin yığmaları mübarizə aparıblar.

Rusiya komandası 29,450 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İlk üçlüyü Yaponiya (29,400 xal) və İtaliya (29,200) milliləri tamamlayıblar. Azərbaycan komandası 26,450 xalla çempionatı 7-ci pillədə başa vurub.

Beş topla yarışlarda isə Rusiya, Bolqarıstan, Yaponiya, Belarus, Ukrayna, İtaliya, İsrail və Çin komandaları xalça üzərinə çıxıblar. Dünya çempionu adını qazanan yaponiyalı gimnastların kompozisiyası hakimlər tərəfindən 29,550 xalla qiymətləndirilib. Bolqarıstan komandası 29,350 xalla gümüş, Rusiya (28,150) isə bürünc medala sahib olub.

“Nağıllar gerçəkləşəcək” devizi altında təşkil olunan dünya çempionatında 61 ölkədən 300-dən artıq gimnast iştirak edib. Gimnastlar çempionatda 9 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastı Z.Ağamirova və qrup hərəkətləri komandamız çoxnövçülük yarışlarında “Tokio 2020”yə vəsiqə qazanıblar.

**AZƏRTAC**

# Nizami Kino Mərkəzində “Rusiya filmləri həftəsi”nin açılışı olub



❒ ***Sentyabrın 23-də Nizami Kino Mərkəzində Rusiya Mədəniyyət Nazirliyinin, Azərbaycan Mədəniyyət Nazirliyinin, Rusiyanın “Kinofest” Prodüser Mərkəzinin və “YARAT” Müasir İncəsənət Mərkəzinin dəstəyi ilə təşkil edilmiş “Azərbaycanda Rusiya filmləri həftəsi”nin açılış mərasimi keçirilib.***

Gecəni Əməkdar incəsənət xadimi, “Azərbaycanfilm” kinostudiyasının direktoru Cəmil Quliyev açıb. O bildirib ki, dalbadal beş ildir təşkil edilən “Azərbaycanda Rusiya filmləri həftəsi” iki ölkənin mədəni həyatında mühüm hadisədir. O vurğulayıb ki, Rusiya kinematoqrafı Azərbaycan tamaşaçısında böyük maraq doğurur. Bu tədbir ildən-ilə daha məzmunlu keçirilir.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov “Rusiya filmləri həftəsi”nin uğur qazanacağına əmin olduğunu bildirərək, bu tədbiri iki ölkə arasında dostluq münasibətlərinin parlaq nümunəsi adlandırıb.

“Kinofest” Prodüser Mərkəzinin baş direktoru Sergey Braqin səmimi qəbula görə Bakı tamaşaçısına təşəkkür edərək deyib ki, Bakı dünyanın ən gözəl və qonaqpərvər şəhərlərindən biridir. O qeyd edib ki, “Azərbaycanda Rusiya filmləri həftəsi” çərçivəsində Nizami Kino Mərkəzində 7 film, “YARAT” Müasir İncəsənət Mərkəzində 3 film nümayiş etdiriləcək.

Sonra rejissor Anar Abbasovun “Döyüş” filmi nümayiş etdirilib. Film böyük maraqla qarşılanıb.

Qeyd edək ki, Rusiya nümayəndə heyətinin tərkibinə tanınmış kinematoqrafçılar – “Tanklar” filminin rejissoru Kim Drujinin, “Damdabaca” filminin ssenari müəllifi və aktyoru Dmitri Bedarev, “Van Qoqlar” filminin rejissoru Sergey Livnev, “Əziz ata” filminin prodüseri Georgi Malkov daxildirlər. Adıçəkilən filmlər sonrakı günlərdə təqdim ediləcək.



**AZƏRTAC**

# Gədəbəy: hər tədbirin öz yeri, öz məqsədi var...

**❒ *Son vaxtlar Gədəbəyin həyatı çox rəngarəng və maraqlı olub. Sosial sahədə həyata keçirilən bir sıra uğurlu layihələr, saysız-hesabsız müxtəlif tədbirlər, əhali ilə yerli icra orqanları arasında yaranan qarşılıqlı inam, isti münasibət dağlar qoynunda yerləşən bu rayonu qonaqlı-qaralı edib. Gədəbəyin tarixində heç vaxt builki qədər qonaq, xüsusilə, əcnəbi qonaq olmayıb.***

Rayonda abadlıq-quruculuq işləri ara vermir. Yollar düzəldilir, yaşayış məntəqələrində sakinlər üçün şərait yaradılır, təbii qazı olmayan kəndlərə qaz çəkilir, elektrik təchizatında yaranan problemlər aradan qaldırılır, su, kanalizasiya xətləri yenilənir.

İcra hakimiyyəti başçısının əhali ilə tez-tez müxtəlif görüşlər, qəbullar keçirməsi, onları dinləməsi, başlıcası isə qaldırılan problemlərin operativ həll olunması bu yerlərdə gözəl, nikbin əhval-ruhiyyə yaradıb. Rayonda ölkə Prezidenti İlham Əliyevin apardığı daxili və xarici siyasət yüksək qiymətləndirilir, əhalinin sosial rifahının yaxşılaşdırılması ilə əlaqədar son vaxtlar həyata keçirilən işlər hamı tərəfindən birmənalı şəkildə layiqincə dəyərləndirilir.

Təkcə bu ayın ötən günləri ərzində Gədəbəydə həyata keçirilən tədbirlərin bəzisi haqqında məlumat verək ki, oxucuda təsəvvür yaransın.




## Çalburunda yeni tibb məntəqəsi

Çalburun kəndində müasir səviyyədə yenidən qurulan həkim məntəqəsi istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən açılış mərasimində rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev çıxış edərək, son vaxtlar rayonda həyata keçirilən geniş infrastruktur layihələrdən, o cümlədən, səhiyyə xidmətinin yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb.

Qeyd olunub ki, rayon sakinlərinə göstərilən tibbi xidmətin müasir tələblər səviyyəsində qurulması üçün bütün zəruri tədbirlər görülür. Bu baxımdan Çalburun kənd həkim məntəqəsində yaradılan şərait sakinlərin razılığına səbəb olub.

Tədbirdə kənd ağsaqqalları çıxış edərək bölgələrdə, eləcə də Gədəbəydə sosial problemlərin həlli istiqamətində ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən işləri yüksək qiymətləndirib və dövlət başçısına dərin təşəkkürlərini bildiriblər.

Mərasim iştirakçıları həkim məntəqəsində yaradılan şəraitlə yaxından tanış olub. Məntəqə Çalburun kəndində yaşayan 2 min nəfərə yaxın sakinə xidmət göstərəcək.



## "Yaylaq festivalı"... "yaylaq düşərgəsi..."

Yeni Azərbaycan Partiyasının və Gədəbəy Rayon İcra Hakimiyyətinin gənc liderlər üçün təşkil etdiyi "Yaylaq düşərgəsi" tədbiri Gəncə və Naftalan şəhərləri, Ağstafa, Daşkəsən, Gədəbəy, Göygöl, Kəlbəcər, Qazax, Tovuz, Samux və Şəmkir rayonlarıYAP təşkilatları gənclər birliklərinin gənc fəallarının iştirakı ilə Düzyurd-Miskinli yaylağında keçirilib.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ümummilli liderin xatirəsini yad ediblər.

Düşərgənin açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı İ.Mustafayev əvvəlcə qonaqları salamlayaraq, bu il Gədəbəydə və Azərbaycanda ilk dəfə təşkil olunan "Yaylaq festivalı" haqqında məlumat verib və festivalın davamı kimi keçirilən belə tədbirlərin əhəmiyyətindən danışıb. Rayon rəhbəri daha sonra ulu öndərin əsasını qoyduğu YAP gənclər birlikləri üzvlərinin fəal olduqlarını razılıqla diqqətə çatdırıb və onlara yeni nailiyyətlər arzulayıb.

Daha sonra çıxış edən natiqlər layihənin əhəmiyyətindən danışıb və bildiriblər ki, YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili məsələlərinə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir.

Qeyd edilib ki, bu tədbirlərin əsas məqsədi gənclərin bir-birini daha yaxından tanımasını, onlar arasında səmimi münasibətlərin yaradılmasını, gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.

Açılış mərasimində düşərgənin bayrağı qaldırılıb və layihə çərçivəsində nəzərdə tutulan tədbirlər barədə iştirakçılara ətraflı məlumat verilib.

## Şınıx kəndində səyyar qəbul

Qəbulda rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Səyyar qəbul-görüşü giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı İ.Mustafayev açaraq bildirib ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hər bir guşəsində olduğu kimi, Gədəbəy rayonunda da həyatın bütün sahələrində inkişaf var. Belə görüşlər də cənab Prezidentimizin tapşırığı ilə keçirilir və məqsəd sizin hər birinizin qarşılaşa biləcəyiniz problemləri vaxtında, operativ həll etməkdir.

Qəbulda çıxış edən kənd sakinləri görülən işləri müsbət qiymətləndirib, kənd ərazisində nasaz elektrik dirəklərinin yenisi ilə əvəz olunması, Şınıx-Zamanlı kəndarası avtomobil yolunun əsaslı təmir olunması və şəxsi məsələlərə dair müraciətlər ediblər.

Kənd sakinlərini diqqətlə dinləyən RİH başçısı səsləndirilən müraciətlərin yerində araşdırılaraq, həll olunması üçün aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə öz tövsiyə və tapşırıqlarını verib.

Sonda kənd sakinləri hər zaman göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.



## Tələbə adını qazananlarla görüş

Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyəti ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirib.

Görüşdə rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev çıxış edərək tələbə adını qazanan gəncləri təbrik edib, onlara təhsildə və gələcək həyatda uğurlar arzulayıb, yüksək bilikli mütəxəssis kimi yetişməyi və Vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edib. Ölkəmizdə təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən, həyata keçirilən layihələrdən söz açan rayon rəhbəri vurğulayıb ki, ulu öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə və onun inkişafına daim böyük diqqət yetirmişdir. Ölkə başçısı cənab İlham Əliyev də bu ənənələrə sadiq qalaraq, təhsilin inkişafını həmişə diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirir.



Görüşdə çıxış edən gənclər göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildirib, müəllim və valideynlərinin etimadını doğruldacaqlarına, bilik və elmlərə əzmlə yiyələnərək ölkəmiz üçün savadlı mütəxəssis kimi yetişəcəklərinə söz veriblər.

Görüşdə qeyd edilib ki, bu il rayonun ümumtəhsil məktəblərini bitirmiş 663 nəfərdən 222 nəfəri ali məktəblərə qəbul olunub. Məzunlardan 31 nəfəri 500–600 bal arası, 10 nəfəri isə 600 baldan yuxarı nəticə göstərib.

İmtahanlarda yüksək nəticə göstərən məzunlara qiymətli hədiyyələr təqdim olunub.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri, Gədəbəy rayonu***

# Maraqlı konsert proqramı

**❒ *Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, dirijor Fəxrəddin Kərimovun rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti keçirilib.***

Məlumat üçün bildirək ki, bu orkestr 1964-cü ildə məşhur Azərbaycan bəstəkarları Qara Qarayev və Fikrət Əmirovun təşəbbüsü ilə yaradılmışdır. Orkestrin baş dirijoru və bədii rəhbəri respublikanın Xalq artisti, Dövlət mükafatları laureatı Nazim Rzayev olmuşdur. 1995-ci ildən 1997-ci ilədək kollektivə Yaşar İmanov rəhbərlik etmişdir. O vaxtdan orkestrə respublikanın Xalq artisti Teymur Göyçayev rəhbərlik etmiş, 2018-ci ildən etibarən bu kollektivin bədii rəhbəri və baş dirijoru Xalq artisti Fəxrəddin Kərimovdur.

Kollektiv dünyanın bir çox məşhur səhnələrində, nüfuzlu beynəlxalq festivallarda iştirak etmiş, xarici ölkələrdə Azərbaycan musiqi sənətini ləyaqətlə təmsil etmişdir. Orkestrin repertuarı Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarətdir.

Dünənki konsertdə Xalq artisti, pianoçu Murad Adıgözəlzadə Azər Dadaşovun fortepiano və orkestr üçün konsertini, Rusiyanın tanınmış violin ifaçısı Alyona Bayeva isə SSRİ Xalq artisti Rodion Şedrinin "Concerto Cantabile" violin və simli orkestr üçün konsertini (Bakıda ilk dəfə səslənir) ifa etmişdir.

Bundan başqa, konsertin proqramına K.Yenkinsin simli orkestr üçün "Palladio" və P.Hindemitin simli kvartet üçün "Minimax" (Bakıda ilk ifa) əsərləri də daxil idi.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

## Festivalın gündəliyi




# Hakimliyə namizədlərlə yazılı imtahan keçiriləcəkdir

**❒ *Hakimliyə namizədlərlə test imtahanının ikinci fazası – yazılı imtahan sentyabrın 28-də saat 11:00-da Dövlət İmtahan Mərkəzinin binasında (Bakı şəhəri, Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi 28) keçiriləcək.***



Hakimlərin Seçki Komitəsindən AZƏRTAC-a bildiriblər ki, namizədlər "İmtahana buraxılış vərəqəsi"ni sentyabrın 25-dən bütün iş vaxtı ərzində şəxsiyyət vəsiqəsini təqdim etməklə Hakimlərin Seçki Komitəsindən (Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov küçəsi, 540-cı məhəllə) almalıdırlar.

İmtahan yerinə saat 10:00-dan gec olmayaraq gəlmək lazımdır. Namizədlər imtahana gələrkən şəxsiyyət vəsiqəsini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq təqdim etməlidirlər. Əks təqdirdə namizəd imtahana buraxılmayacaq.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62.


## BİLDİRİŞ

"Xalq qəzeti"nin 12, 28 iyun və 16 iyul 2019-cu il tarixli nömrələrində Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi tərəfindən digər maşın və avadanlıqların satın alınması üçün dərc olunmuş elektron tenderdə "Ultratek" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib şirkətlə 2019-cu il sentyabrın 20-də müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Bakı Şəhər Reklam İdarəsi bildirir ki, 2019-cu il sentyabrın 23-dən etibarən Bakı şəhəri, Nəsimi rayonu, Füzuli küçəsi 37 nömrəli ünvanda fəaliyyət göstərəcəkdir. Əlaqə nömrəsi -051 940-20-80.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

***dəftərxana ləvazimatlarının satın alınması məqsədilə***

**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il oktyabrın 3-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan- Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu- (012) 404-37-00, daxili-1132.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

***yuyucu vasitələrin satın alınması məqsədilə***

**AÇIQ MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2019-cu il oktyabrın 3-ü saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan-Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu-(012) 404-37-00, daxili-1132.

## Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi

***XI Beynəlxalq Uşaq Muğam müsabiqəsinin keçirilməsinin satın alınması üçün***

**AÇIQ TENDER ELAN EDİR**

• Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini portal vasitəsilə təqdim edə bilərlər.

• İştirak haqqı 100 manatdır.

• Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

Bank-Dövlət Xəzinədarlıq Agentliyi
Kod -210005
M/h- AZ-41NABZ01360100000000003944
VÖEN- 1401555071
SWIFT- CTREAZ22
Alan müştəri- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
H/h- AZ50C-TRE00000000000002147771
VÖEN- 1500171121
Büdcə səviyyəsinin kodu- 7
Təsnifat kodu- 142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-son bir il ərzində (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövründə) yerinə yetirdiyi analoji işlər haqqında məlumat.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 11 oktyabr 2019-cu il saat 18.00-a və tender təklifi ilə bank təminatı sənədlərini isə 21 oktyabr 2019-cu il saat 18.00-a qədər portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 22 oktyabr 2019-cu il saat 10.00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə portal vasitəsilə tanış ola bilərlər.

**QEYD**- tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

E-şərtlər toplusunu 2019-cu il sentyabrın 24-dən əldə etmək olar.

***Tender komissiyası***




## ABŞ

### Birgə hərbi təlimlər



ABŞ və Hindistan bu ilin noyabr ayında ilk dəfə birgə hərbi təlimlər keçirəcəklər. Bunu ABŞ Prezidenti Donald Tramp Hindistanın Baş naziri Narendra Modi ilə Hyustonda Hindistan əsilli amerikalılar qarşısında çıxış edərkən söyləyib. O deyib: "ABŞ kosmik qüvvələri inkişaf etdirir. Biz Hindistanla da bu sahədə sıx əməkdaşlıq edirik. Noyabr ayında ABŞ və Hindistan hərbi sahədə əməkdaşlığı gücləndirəcək və ilk hərbi təlim keçirəcək.

**Məlumatı "The Guardian" yayıb.**

### Pompeo və Lavrov görüşəcəklər



ABŞ dövlət katibi Maykl Pompeo ilə Rusiya xarici işlər naziri Sergey Lavrov arasında görüş planlaşdırılır. Bildirilir ki, Lavrovla Pompeo arasında görüş cümə günü BMT-nin qərargahında keçiriləcək. Görüşün gündəliyi haqqında məlumat verilməyib.

Qeyd edək ki, S.Lavrov BMT-nin Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində Nyu-Yorkda səfərdədir.

**Xəbəri BBC verib.**

## Çin

### Kosmosa yeni peyklər göndərilib



Çin orbitə "Beidou-3" qlobal naviqasiya sistemi üzrə iki yeni peyk göndərib. Bildirilir ki, "M-19" və "M-20" kosmik aparatlarının "Çançjen-3B" raketdaşıyıcısı və "Yuançjen-1" raketi ilə buraxılışı ölkənin cənub-qərbində yerləşən Sıçuan vilayətinin Siçanq kosmodromundan həyata keçirilib.

Qeyd edilir ki, "Beidou -3" qlobal naviqasiya sisteminin yaradılması 2020-ci ildə başa çatacaq.

**Xəbəri "Belta" verib.**

## Avstraliya

### Birgə əməkdaşlıq sazişi



Avstraliya hökuməti Ay və Marsın tədqiq edilməsində ABŞ Kosmik Tədqiqatlar Agentliyi (NASA) ilə birgə iştirak edəcək. Birgə əməkdaşlıq barədə Vaşinqtonda protokol imzalanıb. Protokol NASA rəhbərinin müavini Cim Morhard və Avstraliya Kosmik Agentliyinin rəhbəri Meqan Klark arasında imzalanıb. Sazişə əsasən, Yer peykinin tədqiqi üzrə yeni "Artemis" proqramına qoşulacaq Avstraliya qarşıdakı 5 ildə NASA proqramlarına 150 milyon dollar investisiya yatıracaq.

**Məlumatı TASS yayıb.**

## İspaniya

### İki oyunluq möhlət



"Barselona" klubunun mövsümə uğursuz start götürməsi baş məşqçi Ernesto Valverdenin işini itirməsinə səbəb ola bilər. "Barselona" rəhbərliyi Valverdenin fəaliyyətindən narazıdır. Bildirilir ki, ona daha 2 oyun üçün vaxt verilib. Əgər Liqanın qarşıdakı 2 turunda komanda xal itirərsə, o, istefaya göndəriləcək. Qeyd edək ki, hesabında 7 xalı olan "Barselona" hazırda 8-ci pillədə qərarlaşıb.

**Məlumatı "Eurosport" yayıb.**

*Hazırladı:*
*Elçin ABBASOV,"Xalq qəzeti"*

# Sergey ŞOYQU: Biz Ukrayna xalqı ilə sülh və mehriban qonşuluq şəraitində yaşayacağıq

***❒ Rusiyanın müdafiə naziri Sergey Şoyqu hesab edir ki, Moskva və Kiyev sülh və mehriban qonşuluq şəraitində yaşayacaq. Bu barədə o, "Moskovski komsomolets" qəzetinə müsahibəsində bəyan edib. Məlumatı "Lenta.ru" verib.***




Ukrayna və Rusiya arasında birbaşa hərbi toqquşmanın mümkünlüyü barədə suala cavab verən nazir deyib ki, bu barədə düşünmək belə istəmir. Şoyqu ümid edir ki, Ukrayna rəhbərliyi Moskva üzərinə hərbi yürüşə çağıran ekstremistləri dayandıra biləcək: "Çox ümid edirəm ki, Ukrayna xalqının və rəhbərliyinin bu cür səfeh və mənasız çağırışlara səsləyənləri yerində otuzdurmağa iradəsi və gücü çatacaq", – deyə Şoyqu bildirib.

Rusiyanın müdafiə naziri ukraynalıları qardaş xalq adlandırıb və deyib ki, onun ana tərəfdən qohumları da əslən Ukraynadandır: "Mən tamamilə əminəm ki, biz Ukrayna xalqı ilə sülh və mehriban qonşuluq şəraitində yaşayacağıq. İnanıram ki, bunun da vaxtı gələcək".

Sergey Şoyqu müsahibəsində Rusiya üçün əsas təhlükə barədə də danışıb. Onun sözlərinə görə, ABŞ-ın özünü dünyada hamıdan güclü sayması onu ağılsız addımlar atmağa sövq edə bilər. Bu isə Rusiya və digər ölkələr üçün əsas təhlükədir: "ABŞ-da sövqtəbii hesab etdikləri kimi, görsən ki, dünyada qüvvələr balansı sənin xeyrinədir, o zaman ağlına ən müxtəlif, o cümlədən, ən axmaq ideyalar gələ bilər". Onun fikrincə, istənilən dövlət özünün zəif yerlərini bilməli və balansın qorunmasında, ümumi bərabər təhlükəsizlikdə maraqlı olmalıdır. Bu, səni məcbur edir ki, başını işlədəsən.

Qeyd edək ki, bir qədər əvvəl ABŞ-ın müdafiə naziri Mark Esper bəyan etmişdi ki, ABŞ-ın təhlükəsizliyi üçün əsas təhdid Rusiyadandır. Ona görə ki, Moskva birtərəfli qaydada "qonşu dövlətlərin sərhədlərini dəyişmək istəyir".

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*

# Albaniyada güclü zəlzələ

***❒ Albaniyada güclü zəlzələ olub. 300 yeraltı təkan qeydə alınıb. 100 nəfərdən çox insan xəsarət alıb.***



Ən çox dağıntı paytaxt Tiranada və ikinci böyük şəhər olan Durresdə olub. Bu ərazilərdə 6 bal gücündə zəlzələ qeydə alınıb. Telekanalların verilişləri və bəzi rayonlarda elektrik enerjisi kəsilib. Əhali küçələrdə gecələyib.

Zəlzələnin epimərkəzi Adriatik dənizi sahillərində qeydə alınıb. Yeraltı təkanların gücü burada 7,5 bal olub.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

# DSX: Sərhədçi zabit ona bıçaqla xəsarət yetirən şəxsi tərk-silah edib

**Dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 20-də saat 21:05 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad–Yardımlı avtomobil yolunda Buravar kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində içərisində iki nəfərin olduğu avtomobilin əraziyə yaxınlaşması, avtomobildən bir nəfərin düşərək özünü şübhəli aparması və ətrafı müşahidə etməsi sərhəd naryadının diqqətini cəlb edib.

Şübhəli şəxs gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən sərhədçilər tərəfindən ona "Dayan" əmri verilib, lakin o, əmrə tabe olmayaraq, ərazidən uzaqlaşmağa çalışıb. Sərhəd naryadı tərəfindən yaxalanması zamanı şübhəli şəxs müqavimət göstərib, baş leytenant Allahverdi İsmayılova bıçaqla xəsarət yetirib. Buna baxmayaraq, sərhədçi zabit şücaət nümayiş etdirib, cinayətkarı tərk-silah edərək saxlayıb.

Hadisə zamanı xəsarət almış sərhədçiyə təxirəsalınmaz tibbi yardım göstərilib, vəziyyəti qənaətbəxşdir.

Saxlanılan şəxsin 1975-ci il təvəllüdlü Cəlilabad rayon sakini Əliyev Elşən Dövlət oğlu olması müəyyənləşdirilib. Əraziyə atılmış bağlamaya baxış zamanı içərisində 1 kiloqram 125 qram marixuana, 1 kiloqram 10 qram tiryək və 450 qram heroin narkotik vasitə aşkarlanaraq götürülüb.

İdarə etdiyi avtomobil ilə hadisə yerindən qaçmış digər şəxsin saxlanılması istiqamətində təxirəsalınmaz əməliyyat-qoşun tədbirləri həyata keçirilib, ərazi dərhal qapadılaraq ətrafda axtarış aparılıb. Nəticədə, hadisə yerindən qaçmış şəxs Cəlilabad rayonunun Buravar kəndinin yaxınlığında saxlanılıb. Həmin şəxsin 1979-cu il təvəllüdlü Naxçıvan Muxtar Respublikası, Babək rayon sakini Quliyev Samir Vidadi oğlu olması müəyyənləşdirilib. Avtomobilin içərisindən 55 qram tiryək və şəxsi əşyalar aşkarlanaraq götürülüb.

Fakt üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.



***❒ ABŞ-ın Respublikaçılar Partiyasından olan senator Lindsi Qrem Vaşinqton ilə Ankara arasında strateji tərəfdaşlıq əlaqələrinin genişlənəcəyinə ümid etdiyini bildirib.***

# Senator Qrem: Türkiyə ilə strateji münasibətlərin genişlənəcəyinə ümid edirəm

## *Nüfuzlu respublikaçı senator "Anadolu" müxbirinin suallarını cavablandırıb*

O, Nyu-Yorkda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşünü şərh edərkən senator deyib: "Mən Türkiyə ilə daha geniş strateji əlaqələrin qurulmasının tərəfdarıyam. Bundan başqa, Türkiyənin "F-35" proqramına qayıtması, eləcə də ölkələrimiz arasında azad ticarət haqqında sazişin imzalanması istiqamətində görülən işlər böyük əhəmiyyət kəsb edir".

Xatırladaq ki, bu günlərdə BMT Ali Assambleyasının növbəti iclasında iştirak etmək üçün Nyu-Yorkda səfərdə olan Prezident R.T.Ərdoğan burada bir sıra görüşlər keçirib. Türkiyə lideri senator Lindsi Qrem ilə də görüşərək onunla bir sıra aktual məsələlər üzrə müzakirələr aparıb.

Senator L.Qrem Türkiyə lideri ilə görüşün kifayət qədər pozitiv baş tutduğunu vurğulayıb. Bəyan edib ki, Türkiyə Suriyanın bütövlüyünün qorunmasına və İŞİD-lə mübarizəyə mühüm töhfələr vermişdir. Məhz Ankara Əsəd rejiminin tam hərbi qələbə çalmasına imkan verməyib. Ən vacibi isə odur ki, Türkiyə İdlibdə 4 milyon dinc sakinin kütləvi qətliamına mane olub.

Amerikalı senator, həmçinin qeyd edib ki, Türkiyə Vaşinqton üçün regionda mühüm tərəfdaşdır.

*M.HACIXANLI,*
*"Xalq qəzeti"*

# Cənubi Koreya yarımadanın nüvəsizləşdirilməsi üçün yol xəritəsinin hazırlanmasını təklif edir

***❒ ABŞ və Şimali Koreya qarşıdakı danışıqlarda nüvəsizləşdirməyə dair yol xəritəsi hazırlamalıdırlar.***



Bu barədə bazar ertəsi Koreya Respublikasının xarici işlər naziri Kan Kyunhva Nyu-Yorkda keçirdiyi brifinqdə açıqlama verib. Onun sözlərinə görə, Pxenyan ilk növbədə Vaşinqtondan təhlükəsizlik zəmanəti almağa çalışır və eyni zamanda, Şimali Koreyaya qarşı iqtisadi sanksiyaları yüngülləşdirmək istəyir.

Kan Kyun-hva sentyabrın 22-də Nyu–Yorkda, BMT-nin Baş Assambleyasında iştirak edəcək və çərşənbə axşamı ABŞ lideri Donald Trampla görüşəcək.

*"Xalq qəzeti"*

# Yaponiyada qasırğa



**Yaponiyaya gələn "Tapa" qasırğası nəticəsində Okinava prefekturasında 20 nəfər xəsarət alıb. Dəmir yolunun hərəkəti dayanıb.Miyadzaki prefekturasında bir neçə min ev işıqsız qalıb. Kyusyu adasının dağlıq ərazilərinə yağan güclü yağışlar nəticəsində torpaq sürüşməsi baş verib. Aviaşirkətlər 400-dən çox reysi təxirə salıblar.**

Hazırda "Tapa" qasırğası şimala–Rusiyanın Primorye vilayətinə doğru hərəkət edir.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi**

***Yerli qurumlar üçün dəftərxana və ofis mallarının satın alınması məqsədilə kotirovka sorğusu keçirir.***

İştirak etmək istəyənlər əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Ünvan – Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 7A

Əlaqə telefonu – (050) 361-98-62

Kotirovka sorğusu təklifləri bağlı zərflərdə 26 sentyabr 2019-cu il saat 17.00-dək qəbul olunur.

Təklif zərfləri 27 sentyabr 2019-cu il saat 11.00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 7A nömrəli ünvanda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin iclas zalında açılacaqdır.

## Hava proqnozu

➲ **Sentyabrın 24-də**

➲ Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətii yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub küləyi ilə əvəz olunacaq. Gecə 14-18, gündüz 23-27, Bakıda gecə 15-17, gündüz 24-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Gecə 7-12, gündüz 25-30 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-9, gündüz 13-18 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 9-14, gündüz 23-28 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 5-10, gündüz 19-24 , dağlarda gecə 2-7, gündüz 9-14 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 10-15, gündüz 23-28 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq.Şərq küləyi əsəcək. Gecə 15-17, gündüz 20-25, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi, dosent Elnur İmanova əzizi

**ELÇİN ƏLİYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 7797
SİFARİŞ 3094
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00